| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, indi bizim gündəliyimizdə 17 məsələ qalır və bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. Bilirsiniz ki, ikinci oxunuşda olan qanun layihələrinin maddələr üzrə səsverməsi və sair uzun bir prosesdir. Xahiş edirəm, hamınız bu prosedura diqqət yetirin.

Deməli, hörmətli həmkarlar, bizim növbəti 5 məsələmiz möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bu məsələlərin 4-ü mahiyyətcə bir-birinə yaxındır. 6-cı məsələ Kraudfandinq haqqında qanun layihəsidir, 7-ci məsələ Mülki Məcəllədə və daha 3 məcəllədə, “Dövlət rüsumu haqqında” Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir, 8-ci məsələ Əmək Məcəlləsində və Mülki Məcəllədə, “Valyuta tənzimi haqqında” Qanunda və daha iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir, 9-cu məsələ isə Vergi və Miqrasiya məcəllələrində, “Sosial sığorta haqqında” Qanunda və daha 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Hörmətli həmkarlar, bu məsələlər və sonrakı 10-cu məsələ ilə əlaqədar bizim dəvət edilən şəxslərimiz var. Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini hörmətli Elmin müəllim Məmmədov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri hörmətli Fərid Osmanov və agentliyin Hüquq departamentinin müdiri hörmətli Kaul Məmmədov bizim iclasımızda iştirak edirlər. Mən bir daha sizin hamınızı salamlayıram.

Hörmətli həmkarlar, mən təklif edirəm ki, ötən dəfə olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə həmişə olduğu kimi, birlikdə müzakirəmizi keçirək, səsvermələr isə, həmişə olduğu kimi, ayrılıqda keçiriləcək. Qanun layihələrinə İqtisadi siyasət, sənaye və

sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, özünüz məlumat verirsiniz? Buyurun. Komitə sədri Azər Əmiraslanov.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Kraudfandinq, vençur kapitalı fondu, innovasiya ekosistemi üçün hüquqi əsaslar yaradan rəqəmsal iqtisadiyyatın dəstəklənməsi ilə bağlı olan 4 qanun layihəsi ikinci oxunuşda müzakirə üçün təqdim olunur. Xatırlatmaq istərdim ki, layihələr birinci oxunuşda konseptual olaraq geniş təqdim edildi. Müzakirələr zamanı deputat həmkarlarımız tərəfindən innovativ qanunvericilik paketi birmənalı şəkildə dəstəkləndi.

Layihələrlə bağlı çoxməzmunlu və konseptual çıxışlar edildi. Səsləndirilən fikirlər göstərdi ki, millət vəkilləri rəqəmsal inkişaf və innovativ iqtisadiyyatla bağlı qanunvericilik təşəbbüslərini təkcə dəstəkləmir, həm də bu sahədə dövlət strategiyasının və fəaliyyət planının mahiyyətinə vararaq onu yüksək dəyərləndirirlər. Hətta bəzi çıxışlar ikinci oxunuşun tələblərinə uyğun olmaqla, layihələrin strukturunu, tənzimləmə predmetini və istiqamətlərini, konkret hüquqi və praktiki məsələləri də əhatə etdi. Bu da bizim bugünkü təqdimat yükümüzü xeyli azaltmış oldu. Həm də buna görə hörmətli həmkarlarımıza komitəmiz adından təşəkkürümüzü bildiririk.

Hesab edirik ki, Milli Məclisdə keçirilən müzakirələr və onların davamı olaraq təşkil edilən ictimai dinləmə təkcə qanunvericilik prosesinin mərhələləri deyil, eyni zamanda, ölkəmizdə rəqəmsal inkişaf strategiyasının ictimailəşdirilməsi, rəqəmsal keçid istiqamətində maarifləndirmənin aparılması baxımından vacib əhəmiyyət kəsb edir.

İnnovasiya yalnız yeni texnologiyaların tətbiqi ilə deyil, həm də yeni düşüncə tərzinin formalaşması ilə başlayır. Bu baxımdan, parlament həm

də belə bir düşüncə tərzinin, innovativ təfəkkürün formalaşmasına ilkin mərhələdə özünün çox ciddi töhfəsini verdi.

Hörmətli həmkarlar, birinci oxunuşda səslənən fikirləri və təklifləri ümumiləşdirərək bildirmək istərdim ki, hazırkı mərhələdə prioritet məsələ innovasiya ekosistemi üçün zəruri alətlərin hüquqi əsaslarının formalaşdırılmasıdır. İnnovativ iqtisadiyyat inkişaf etdikcə onu tənzimləyən qanunvericilik bazası da toplanmış təcrübə və yeni reallıqlar nəzərə alınmaqla təkmilləşdiriləcəkdir. Kraudfandinq və vençur kapitalı kimi maliyyələşmə alətləri ölkəmizdə ilk dəfə tətbiq edildiyi üçün ilkin mərhələdə ehtiyatlı yanaşma sərgilənir. Müəyyən vaxt ərzində bu mexanizm təcrübədən keçdikdən sonra tənzimləyici normalara yenidən baxılması mümkün hesab edilir.

Layihələrdə əsas götürülən başlıca prinsip investorların, o cümlədən vətəndaşların hüquqlarının qorunması və maliyyə bazarlarında şəffaflığın təmin edilməsidir. Belə ki, həm vençur kapitalı fondu, həm də kraudfandinq platforması faktiki olaraq vətəndaşların vəsaitinin cəlb olunduğu maliyyə mexanizmləridir. Bu məqsədlə tənzimləyicinin müəyyən etdiyi minimum tələblər  risk əsaslı yanaşmanın tətbiqi üçün zəruridir. İnnovasiya ekosistemi çox sürətlə inkişaf edən, texnologiya ilə dəyişən sahədir. Bazarın və risk dərəcəsinin dəyişməsi fonunda hesabatlılıq və təhlükəsizlik standartlarının çevik yenilənməsi ehtiyacı yaranacaqdır. Mərkəzi Bankın müəyyən etdiyi meyarlar məhz bu çevikliyi təmin etməklə qanun üzrə əsas prinsipləri və sərhədləri müəyyən edir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsinin birinci oxunuşda təqdimatı zamanı məlumat vermişdik ki, aparılmış müzakirələr çərçivəsində səsləndirilən bəzi təklif və tövsiyələr razılaşdırılmaq üçün

qanunvericilik təşəbbüsü subyektinə təqdim edilmişdir. Müvafiq razılaşdırmadan sonra ikinci oxunuşda qanun layihələrinə edilmiş dəyişikliklər barədə sizə məlumat vermək istərdim.

“Valyuta tənzimi haqqında” Qanuna edilən dəyişikliklər Mərkəzi Bankın İdarə Heyətinin təsdiq etdiyi qaydaların predmeti olduğu üçün qanun layihəsindəki müvafiq dəyişikliklər Mərkəzi Bankın aidiyyəti qaydalarına göndəriş xarakterli norma kimi müəyyən edilmişdir. Yəni Mərkəzi Bankın təsdiq etdiyi xüsusi qaydaları yenidən qanunda əks etdirməyə ehtiyac yoxdur. Sadəcə olaraq, bu qaydalara istinad edilməsi zərurəti yaranır. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərin bir qismi “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanunda müəyyən edildiyindən müvafiq dəyişikliklərin edilməsi zəruri hesab edilməmişdir. Digər dəyişikliyin çıxarılması səbəbi isə bank hesablarının açılması zamanı tələb olunan sənədlərin qanunda deyil, normativ xarakterli aktda tənzimlənməsi ilə əlaqəlidir.

Əgər ümumiləşdirsək, təklif olunan dəyişikliklər yeni hüquqi tənzimləmə yaratmır. Bu dəyişikliklərin əsas məqsədi artıq digər qanunlarda və Mərkəzi Bankın normativ aktlarında tənzimlənən məsələlərin təkrarlanmasını aradan qaldırmaq, qanunvericiliyi daha sistemli formalaşdırmaqdır.

Hörmətli həmkarlar, bir daha xüsusi vurğulamaq istərdim ki, parlament qısa bir zaman kəsiyində rəqəmsal keçid və innovativ inkişaf strategiyası ilə bağlı möhtərəm cənab Prezidentin təşəbbüslərini ardıcıl dəstəkləyən, inklüziv qanunyaratma nümunəsi nümayiş etdirən, ilkin mərhələdə maarifləndirməni və ictimailəşdirməni uğurla təmin edən səmərəli platforma təqdim etdi. Heç şübhəsiz, yeni qanunvericilik təşəbbüsləri dövlətimizin

rəqəmsal və innovativ inkişaf mərhələsinə strateji, konseptual, institusional və praktik yanaşdığını göstərir və hər bir layihə Azərbaycanın innovasiya iqtisadiyyatına keçidinin sürətləndirilməsinə, innovasiya ekosisteminin gücləndirilməsinə və yüksək əlavə dəyər yaradan fəaliyyət sahələrinin təşviqinə xidmət edir.

Qeyd edilənləri nəzərə alaraq, layihənin ikinci oxunuşda müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Siz bizə 6-cı, 7-ci, 8-ci, 9-cu məsələlər haqqında ümumi məlumat verdiniz.

Hörmətli həmkarlar, 7-ci, 8-ci və 9-cu məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. İndi isə komitənin rəyini bildirmək üçün mən sözü komitənin sədri hörmətli Əli Hüseynliyə verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. 7-ci məsələ ilə bağlı onu qeyd etmək istəyirəm ki, buradakı bütün layihələr 6-cı məsələ ilə bağlıdır, Kraudfandinq haqqında yeni qanuna uyğunlaşdırma xarakterli qanun layihələridir. Hörmətli Azər müəllimin də fikirləri ilə tam şərikəm. Baxmayaraq ki, spesifik, mürəkkəb anlayışları kifayət qədər çox olan bir sənəddir, amma deputat həmkarlarımız birinci oxunuş zamanı çox peşəkar çıxışlar etdilər. Həm kraudfandinqin, həm də vençurun gələcəkdə investorlar üçün, startaplar üçün nə qədər əhəmiyyətli olduğunu vurğuladılar. Mən də bizim komitə adından dəyərli həmkarlarımıza təşəkkürümüzü bildirirəm.

Hörmətli sədr, qeyd etdiyim kimi, bunlar uyğunlaşdırma xarakterlidir. Yeganə qeydimiz ondan ibarətdir ki, bu qanunun qəbulu bizim mülki qanunvericiliyə bir sıra yeni anlayışlar gətirir. Bunlar beynəlxalq anlayışlardır və belə anlayışların gəlməsi ilə bizim hüquq dilimiz daha da zənginləşir. Onların başqa mənasını axtarmaq lazım deyil, çünki anlayışlarda onların izahları da var. Əgər biz bu anlayışları dəyişdirsək, yəni onların mənasını Azərbaycan dilində axtarıb tapmaq istəsək, hesab edirəm ki, bütövlükdə, bu qanunların effektivliyinə mane olarıq. Çünki bu qanunlar həm Azərbaycan vətəndaşları, həm də investorlardan ötrüdür. Onsuz da, bizim mülki qanunvericiliyimizdə kifayət qədər bu cür anlayışlar var. Əsas odur ki, həmin anlayışların bu qanunlarda izahları da verilib. Bunu qeyd etmək istəyirdim.

8-ci və 9-cu məsələlərlə bağlı isə onu söyləmək istəyirəm ki, 8-ci məsələ Mülki Məcəllə ilə bağlıdır, tərəfimizdən məlumat verilmişdir, komitəmizin rəyi müsbətdir. 9-cu məsələ isə Miqrasiya Məcəlləsinə edilən əlavələr və dəyişikliklərdir. Bununla da bağlı hər hansı təklif və irad daxil olmamışdır. Nəzərə alınmasını xahiş edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Siz çox vacib bir məqama – tərcümə məsələsinə toxundunuz. Əgər tərcümə ekvivalenti yoxdursa, təbii ki, verilən həmin termin qalmalıdır. Tamamilə düz deyirsiniz ki, beynəlxalq təcrübədə artıq qəbul olunub. Hər bir terminin özünün bir tarixçəsi də var. Ona görə də bunları saxlamaqla bizim qanunvericiliyimiz daha çox udur, nəinki uduzur.

Hörmətli həmkarlar, bilirsiniz ki, 8-ci və 9-cu məsələlərə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Ona görə də mən komitənin sədri

hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun, məlumat verin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bizim komitənin profilinə uyğun olaraq, Əmək Məcəlləsində və "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə komitədə ikinci oxunuşda baxılmışdır. Birinci oxunuş zamanı qanun layihəsindəki dəyişikliklərin mahiyyəti barədə hörmətli millət vəkillərinə tərəfimizdən ətraflı məlumat verilmişdir. İkinci oxunuş zamanı komitəyə əlavə dəyişiklik, başqa təklif daxil olmamışdır. Qanun layihəsinin mətnində dəyişiklik yoxdur və ikinci oxunuşda da qanun layihələrini dəstəkləməyi hörmətli Məclisdən xahiş edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, biz məlumatı və rəyləri dinlədik. Bilirsiniz ki, ikinci oxunuşda olan qanun layihələridir deyə, biz onların hər birini ayrıca əsas kimi qəbul etməliyik. İndi isə xahiş edirəm, 6-cı məsələyə, yəni Kraudfandinq haqqında qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Layihə əsas kimi qəbul edildi. Çox sağ olun.

İndi isə mən 7-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi isə mən 8-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul olundu.

İndi isə 9-cu məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

9-cu məsələ də əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, indi müzakirəyə keçirik. Xatırladım ki, bu 4 qanun layihəsi haqqında bizim birgə müzakirəmiz olacaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif olundu ki, çıxışlar 5 dəqiqəyə qədər olsun. Səsə qoymaq lazımdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 5 dəqiqəyə qədər.

Nigar Arpadarai. Buyurun.

**Nigar Arpadarai.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, ilk növbədə, qeyd etmək istəyirəm ki, qanun layihəsinin məqsədi çox aydındır və onu müsbət qiymətləndirirəm. Çünki Azərbaycanda kraudfandinq mexanizmlərinin hüquqi əsasının yaradılması vacibdir. Çünki startapların, innovativ ideyaların, yeni bizneslərin maliyyələşdirilməsi üçün alternativ maliyyə mənbələrinə ehtiyac var və bu baxımdan, bu qanun dəstəklənməlidir.

Hörmətli xanım sədr, icazənizlə, ikinci oxunuşa uyğun olaraq, sualım və təklifim var. Birinci məsələ kraudfandinqin anlayışı ilə bağlıdır. Qanunda əsas olaraq borc əsaslı və səhm əsaslı kraudfandinqdən söhbət gedir və əsasən, bunlar tənzimlənir. Lakin dünyada kraudfandinqin digər növləri də var. Məsələn, qrant əsaslı kraudfandinq var. Bundan başqa, qarışıq modellər mövcuddur. Məsələn, elə layihələr var ki, maliyyələşmədə həm qrant, həm də borc elementlərini özündə birləşdirir və ya qrantla investisiya birlikdə tətbiq olunur. Bu baxımdan, mənim sualım ondan ibarətdir ki, qanunda nəzərdə tutulmayan digər kraudfandinq formalarının hüquqi statusu necə olacaq? Onlardan istifadə etmək mümkün olacaqmı və ya onlar olmayacaq? Yaxud onlar, məsələn, qanundankənar, qanunsuz

nəzərdə tutulacaq? Düşünürəm ki, biz bunu qanunda qiymətləndirsək, daha yaxşı olar. Əslində, bu qanunun daha çevik olması bizə imkan yaradacaq ki, kraudfandinqi ölkəmizdə inkişaf elətdirək.

İkinci məsələ platformadan istifadə ilə bağlıdır. Burada əsas platformanın və operatorun fəaliyyəti və kraudfandinqin mexanizmləri müəyyən olunur. Lakin sual yaranır: platformadan kənarda təşkil olunan maliyyələşdirmə necə qiymətləndiriləcək? Əgər hansı isə bir layihə rəhbəri layihəni “WhatsApp” üzərindən maliyyələşdirmək üçün açıq elan edirsə, bu necə hesab olunur? Yəni bu, qanun baxımından necə dəyərləndirilir? Bu fəaliyyət qanuni hesab olunurmu və ya artıq qanundankənar fəaliyyət kimi qəbul edilir? Bununla bağlı da qanunda bir müddəa yox idi.

Üçüncü məsələ. Hörmətli həmkarlar, təklif olaraq iqtisadi stimulları qeyd etmək istərdim. Layihədə, əsasən, səhm əsaslı kraudfandinq səhmlərin satışı, borc əsaslı kraudfandinq isə borc alətləri vasitəsi ilə həyata keçiriləcək. Amma bu vasitələrdən hər ikisi – səhmlərin və istiqrazların buraxılışı və satışı artıq mövcud qanunvericiliklə tənzimlənir. Belə olan halda həm investor, həm də maliyyə cəlb etmək istəyən sahibkar üçün sual ondan ibarətdir ki, nəyə görə məhz kraudfandinq platforması seçilməlidir? Çünki ideya çox gözəldir. Amma həmin layihə rəhbəri nəyə görə o platformadan istifadə etməlidir? Bunun üçün mən müəyyən stimullaşdırıcı mexanizmin olmasını təklif edərdim. Dünyada kraudfandinqin aktiv istifadə olunduğu ölkələrə baxsaq, adətən bu, vergi güzəştləri mexanizmidir. Ola bilsin ki, bizim qanunlarda var. Sadəcə, bunu aydınlaşdırmaq istərdim. Çünki əgər belə mexanizmlər nəzərdə tutulmasa, bu platformaya maraq çox olmaya bilər.

Ümumilikdə, təşəbbüsü dəstəkləyirəm. Azərbaycanda innovativ bizneslərin, startapların və ideyaların maliyyələşdirilməsi üçün alternativ maliyyə çıxışına ehtiyac var. Bir daha təkrar etmək istərdim, bu mexanizmlərin, həqiqətən, işləməsi üçün onların hüquqi bazası ilə yanaşı, iqtisadi motivasiya sistemi də formalaşdırılmalıdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Kraudfandinq haqqında qanun layihəsi olduqca mühümdür. Mən düşünürəm ki, vətəndaşlarımızın startap layihələrinin, biznes təşəbbüslərinin maliyyələşdirilməsi üçün çox gözəl bir vasitədir. Hüquqi əsaslar yaradacaqdır, bundan bəhrələnəcəyik. Əslində, məsələnin mahiyyəti nədən ibarətdir? Hər hansı bir layihənin kollektiv maliyyələşdirilməsindən, ya da ictimai maliyyələşdirilməsindən.

Hörmətli xanım sədr, “kraudfandinq” termininin özü bir qədər anlaşılan deyil, dilimizə yaddır. Bu gün dilimiz üzərində təzyiq yaradan əsas vasitələrdən biri də bu terminlərdir. Hər gün inkişaf etmiş ölkələrdə yaradılan yeni innovativ texnologiyalardan onlarca, yüzlərcə termin dilimizə daxil olur. Elmə də gəlir, hüquqi terminlərin prosesində də iştirak edir. Bu terminlərlə elə bir cümlə qurmaq olar ki, orada, ümumiyyətlə, Azərbaycan sözü olmasın. Amma yenə də az-çox anlaşılan olacaqdır.

“Kraudfandinq” sözünün elə etimoloji tərcümədə mənası da kollektiv maliyyələşdirmə, ya da ictimai maliyyələşdirmədir. Hörmətli xanım sədr, Siz keçən iclasda dediniz ki, maarifləndirmə aparmaq lazımdır. Məncə, bu terminin adını dəyişib ya kollektiv maliyyələşdirmə, ya da ictimai

maliyyələşdirmə qoysaq, dediyimiz o hüquqi maarifləndirmənin 50 faizinə bəri başdan nail olmuş olarıq. Bu, vətəndaşlar üçün çox anlaşılan olacaqdır. Dil hamımızın həssasiyyətidir, yəni təkcə mənim, bir başqasının deyil, hamı Azərbaycan xalqının fərdləri olaraq bu dilin daşıyıcısıdır. Ona görə, məncə, bu məsələ hamımızın marağındadır.

İkinci məsələ. Baxın, “q” səsi “k” səsindən daha qədim səsdir, çünki boğazda tələffüz olunur. Biz bu termini ifadə edəndə dil yaddaşı bizə diktə edəcək ki, “q” daha qədim olduğu üçün “k” samitinin əvəzinə imperativ səs olaraq “q” işlənsin. Özümüzdən asılı olmayaraq, birinci, buna “kraudfandinq”  deyil, “qraudfandink” deyəcəyik.

Həmçinin sait və samit əvəzlənməsi üç yerdə pozulur. Bizim dilimizin əsas xüsusiyyətlərindən biridir: “k”, “r”, “d”, “f”, “n”, “q”. Dil mütləq tələb edəcək ki, orada sait işlənsin. Yenə tələffüzdə problem yaranacaqdır. Biz “müvəffəqiyyət” sözünü VII əsrdən bəri hələ də tələffüz edə bilmirik. Çünki dil rədd edir. 1920-ci illərin əvvəllərində bizim latın qrafikalı əlifbamızda “ɳ” səsi vardı, onu çıxardıq. 100 ildir, o səsi yazmırıq, amma bu gün yenə də “ɳ” tələffüz edirik, axıra qədər də belə deyəcəyik. Çünki dil bunu istəyir. Burada elə “ɳ” deməkdir, burada da tələffüz pozulacaqdır. Ona görə də bu yaxınlarda ortaq türk əlifbası qəbul ediləndə, nə yaxşı ki, bu “ɳ” səsini yenidən əlifbaya saldıq. İndi bilmirəm, biz işlədəcəyik, ya yox. Amma bütün hallarda, məncə, ehtiyac var. Madam ki, tələffüz edirik, niyə işlətməyək? Bu da başqa bir məsələ.

Hörmətli xanım sədr, Siz maarifləndirmə ilə bağlı qeyd etdiniz. Əgər mümkündürsə, qanunvericilik  təşəbbüsü ilə çıxış edən subyekt də razıdırsa, bunu dəyişək, ya ictimai maliyyələşdirmə haqqında, ya da

kollektiv maliyyələşdirmə haqqında qanun edək. Beləliklə, işimizi hüquqi maarifləndirmə baxımından həll etmiş olaq.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim. İlk öncə onu deyim ki, mənim keçən dəfə maarifləndirmə ilə bağlı dediyim bu məsələ ilə deyil, torpaq məsələsi ilə əlaqəli idi, yəni torpaqların birləşməsi və sair. Ancaq deyirsiniz, buna da aid etmək olar. Mən bundan öncə Əli müəllimin dediyi sözlə razılaşdım ki, bunlar beynəlxalq praktikada qəbul olunmuş terminlərdir. Əli müəllim bizə dedi və qanunda da bunların bütün izahları var.

Mən Sizin fikrinizlə də razıyam. Mən bir söz dedim, düzdür, mənim sözüm burada imperativ olmamalıdır. Heç vaxt belə fikrim də olmayıb. Mən dedim ki, əgər tərcümənin ekvivalenti yoxdursa, onu saxlamaq olar. Fikrinizə görə çox sağ olun. İndi hamısı yazılır, nəzərə də alınacaq.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsini dəstəkləyirəm. Bu, Azərbaycan ictimai fikrində yeni bir anlayışdır, Azərbaycanın iqtisadiyyatında yeni bir səhifədir. Bu, özəl sektorun öz topladığı vəsaitlər hesabına hansı isə layihənin həyata keçirilməsidir. Bu, iqtisadi inkişafda yeni bir dəstəkdir, yeni bir gücdür. Bu, Azərbaycan üçün yenidir, xarici ölkə təcrübəsi Azərbaycana gəlir. İnanıram ki, bu, Azərbaycanda öz təsdiqini tapacaq. Ancaq bununla belə, bir neçə məsələ ilə bağlı öz təklifimi vermək istəyərdim.

Hörmətli həmkarım Hikmət müəllimin təklifini dəstəkləyirəm, başlığını dəyişsək, yaxşı olar. Mən təklif edirəm, “özəl təşəbbüsə maliyyə dəstəyi qurumları barəsində” formasında olsun. Çünki ad, termin yenidir və

sahibkar bu termini əzbərləyib başa düşənə qədər xeyli vaxt keçəcək. Eyni zamanda, ümumi müddəalarda, əsas anlayışlarda akademik iqtisadi terminlərdən çox istifadə edilir və bu, tam anlaşılan deyil. Əgər biz bunu kiçik sahibkarlar üçün yaradırıqsa, onda onların başa düşəcəyi dildə olmalıdır. Bu baxımdan, bu məsələyə yenidən baxılmasını təklif edirəm.

Eyni zamanda, bu, riskli bir addım üçün hazırlanan bir layihədir. Belə ki, özəl təşəbbüs üçün yığılan vəsaitə, düzdür, nəzarət edilir, amma həmin təşəbbüs uğurlu alınmaya bilər. İştirakçı əvvəldən bilməlidir ki, o, riskli iqtisadi təşəbbüsə qoşulur. Düzdür, iqtisadiyyatda, iqtisadi proseslərdə həmişə müəyyən qədər risk var. Ona görə də bu təşəbbüsün iştirakçıları arasında hüquqi məsələlərin tənzimlənməsinin daha dəqiq işlənməsi də olduqca vacibdir.

Mən də Hikmət müəllim kimi düşünürəm ki, bu qanunun təbliğinə böyük bir ehtiyac var. Mən ehtiyat edirəm ki, bir-iki belə layihə uğursuz alınar və uğursuz layihənin iştirakçıları sosial şəbəkəyə, mətbuata çıxaraq pullarını itirdiklərini bildirərlər. Ona görə də bunun təbliğinə, eyni zamanda, uğurlu layihələrin təbliğinə böyük bir ehtiyac vardır. Qanuna səs verəcəyəm.

Hörmətli xanım sədr, sabah iyulun 14-dür. 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin birinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin ildönümüdür. Ulu Öndər Azərbaycan tarixində elə böyük bir iz qoyub ki, onun həyatının hər mərhələsi bizim üçün öyrəniləsi bir dərslikdir və vaxtaşırı biz ona qayıdırıq. Heydər Əliyevin 1969–1982-ci illərdə Azərbaycana rəhbərlik etməsi bütün göstəricilərlə geridə qalmış ölkənin həmin məsələlərdə uğur qazanmasına səbəb oldu. Həmin dövrdə Azərbaycan kənd təsərrüfatı, sənaye bölgəsinə, sənaye – kənd təsərrüfatı bölgəsinə çevrildi. 250 zavod tikildi, 7 yeni universitet, 800-dən çox orta

məktəb açıldı. Azərbaycan mədəniyyəti, incəsənəti SSRİ və dünya səviyyəsində tanındı. Heydər Əliyevin bacarığı SSRİ rəhbərliyi tərəfindən görüldü və o, SSRİ rəhbərliyinə çəkildi. SSRİ tarixində türk xalqlarından cəmi üç nəfər SSRİ rəhbərliyində olub. Nəriman Nərimanov, 1958–1961-ci illərdə özbək siyasətçi Nuriddin Muhiddinov və Ulu Öndər Heydər Əliyev. Heydər Əliyevin siyasi idarəetmə məktəbi haqqında indi də postsovet məkanında danışırlar. Ulu Öndərin 20 Yanvar hadisələrindən sonra SSRİ rəhbərliyini cinayətdə ittiham etməsi böyük bir cəsarət idi.

Ulu Öndərin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməsi Naxçıvanın Ermənistan tərəfindən işğalının qarşısını aldı. 1993-cü ildə isə onun Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsi Azərbaycanı müstəqilliyinin itirilməsindən və uzun müddət davam edəcək vətəndaş müharibəsindən xilas etdi. Azərbaycan dövlətçiliyinin əsasını qoydu. O dövlətçilik ki indi Prezidentimiz tərəfindən uğurla davam etdirilir. Torpaqlarımız işğaldan azad edilib. Bu gün Şuşada 4-cü Qlobal Media Forumu işinə başlayıb. 54 ölkədən 160 nümayəndə var və bu 160 nümayəndənin hər biri öz ölkəsinin tanınmış mətbuat nümayəndəsidir. Mən ara-sıra cənab Prezidentin çıxışından çıxarışlara baxdım, onun ABŞ ilə, Rusiya ilə, Fransa ilə, Avropa Birliyi ilə münasibətlər barəsində söylədikləri, doğrudan da, çox əhəmiyyətli, ciddi fikirlərdir. Bunun özü göstərir ki, Ulu Öndər Heydər Əliyevin başladığı böyük, qüdrətli Azərbaycan yolu cənab Prezidentimiz tərəfindən uğurla davam etdirilir və onun rəhbərliyi ilə Azərbaycan bundan sonra da böyük uğurlar qazanacaqdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Qanun layihəsi ilə bağlı çıxış edən hörmətli deputat həmkarlarımın hər birinə təşəkkür edirəm. Maraqlı məsələlər qaldırıldı, təkliflər səsləndirildi. Qaldırılan bəzi məsələlərə münasibət bildirmək istərdik.

Hörmətli həmkarımız Nigar Arpadarai qeyd etdi ki, səhm əsaslı, istiqraz əsaslı kraudfandinqdən başqa, digər maliyyələşdirmə formaları qəbul edilə bilərmi, mümkündürmü? Sadəcə olaraq, hər iki maliyyələşdirmə forması kraudfandinq qanunvericiliyinin predmetidir. Amma digər maliyyələşdirmə formaları da mümkündür. Ona görə ki, məqsəd hər bir innovasiya layihəsinin dəstəklənməsidir. Burada mülki qaydada borclar da, qrantlar da və sair də ola bilər. Sadəcə olaraq, biz nəzərə almalıyıq ki, mülki qanunvericiliklə istənilən maliyyələşmə, dəstəklənmə formaları tanınır, mümkündür. Komitə iclasında da bu məsələ qaldırılmışdı və prosedur olaraq da belə bir maliyyələşdirmə forması həyata keçirilə bilər. Sadəcə, tərəflər bunu mülki qaydada, təbii ki, rəsmiləşdirməlidirlər.

Digər bir məqam onunla bağlıdır ki, qanunvericilikdən kənar hər hansı bir maliyyələşdirmə, – xüsusi ilə də "WhatsApp" qeyd olundu, – bilirsinizmi, bu, artıq dəstəyin formalarıdır və burada da müəyyən risklər ola bilər. Əgər qanunvericilik hansısa prosedurları nəzərdə tutursa, o halda investorların, vətəndaşların hüquqlarının qorunması üçün daha ciddi əsaslar ola bilər. Təbii ki, ekosistemin inkişaf etdirilməsi bu sahədə zəruri imtiyazlar, təşviqlər nəzərdə tutur. Bizim sonuncu qanun layihəsi də məhz ona yönəldilib ki, vergi, satınalmalar, digər rıçaqlar vasitəsi ilə bu cür innovativ layihələr dəstəklənsin. Bütövlükdə, onu da nəzərə almalıyıq ki, bu qanunvericilik paketi yeni bir təşəbbüsdür. İnnovasiya ekosistemi ölkəmizdə inkişaf etdikcə, bu qanunun təşəbbüsləri reallaşdıqca təcrübə

toplanacaq. Hesab edirik ki, bizim bu gün qəbul etdiyimiz qanunlar da gələcəkdə təkmilləşdiriləcəkdir.

Hörmətli xanım sədr, qanun layihəsinin adı ilə də bağlı hörmətli həmkarlarımız fikirlər səsləndirdilər. Biz bu adları nə qədər milliləşdirməyə cəhd edəcəyiksə, bu, müəyyən bir uğursuzluğumuz ola bilər. Gərək bunu tam dəqiq ifadə edək, çünki təhrif edilmiş adlar bu qanunun mahiyyətini təhrif edə bilər, bizi əsas məqsəddən, hədəfdən də uzaqlaşdıra bilər. Məsələn, "kraudfandinq" sözündən söhbət gedirsə, ingilis dilində "crowd" kütləvi, izdihamlı deməkdir. Yəni kütləvi ilə kollektiv ictimai maliyyələşdirmə tamam fərqli anlayışlardır. Biz bu şəkildə yanaşanda hətta qanun layihəsi barədə də tam anlaşılmazlıq yarana bilər. Ona görə də bizim yanaşmamız bundan ibarətdir ki, beynəlxalq leksikonda qəbul edilmiş terminləri olduğu kimi saxlayaq. Gələcəkdə bizim qanun layihələri qəbul edildikdən sonra beynəlxalq ekspertlər tərəfindən də nəzərdən keçiriləcək, onlarda da hər hansı bir anlaşılmazlıq yaranmasın. Hər bir halda hörmətli həmkarlarımıza dəyərli fikirlərinə görə təşəkkürümüzü bildiririk. Sağ olun.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Nigar xanım platformalarla bağlı da bir məsələ qaldırmışdı. Əyani, onlayn platforma. Mən düşünürəm ki, bu məsələyə də sonra baxılacaq. Çünki üç məsələ qaldırmışdı, onlardan biri platforma ilə bağlı idi.

Hikmət müəllim, Nizami müəllim, sualdır, təklifdir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamıya söz verəcəyəm. Buyurun, Hikmət müəllim.

**Hikmət Məmmədov**. Mənim Azər müəllimə bir sualım var. Azər müəllim sırf bir mənada tərcüməni dedi. O zaman Azər müəllim fərqi izah etsin, görək, Azərbaycan dilində "kütləvi" sözü ilə "ictimai" sözünün fərqi

nədir? “Kollektiv” bizim sözümüz deyil. Görək, hansı nəyi ifadə edir, hansı uyğundursa, onu yerinə qoyaq.

**Sədrlik edən.** Biz indi burada diskussiya açmayacağıq. Mən istərdim, siz bunu işçi qaydada... Xüsusi ilə də yanbayan oturursunuz, ardıcıl. Ona görə də, xahiş edirəm, Azər müəllim, işçi qaydada bunu danışarsınız.

Nizami müəllim, bu da yenə linqvistik məsələ ilə bağlıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamınızı akademiyaya göndərəcəm, gedin, orada diskussiyalar açın. Bəli, buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, qanunun adı ilə bağlı nəzərinizə çatdırmaq istərdim ki, bu termin ilk dəfə olaraq Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya”da əksini tapmışdır. Hazırkı qanun layihəsinin hazırlanması “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı” üzrə tədbirlər planında əksini tapmışdır. Artıq bu termin qanunvericilikdə təsbit olunan bir termindir və bunun qanunun adında qalması daha da məqsədəmüvafiq olardı.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Azər müəllim, nə isə demək istəyirsiniz? Gəlin, səsə qoyaq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Azər müəllim, işçi qaydada.

Məndə belə bir məlumat var, Elmin müəllim bu məsələlərlə bağlı nə isə cavab vermək istəyir. Həm birinci oxunuş, həm də ikinci oxunuş üzrə. Buyurun.

**Elmin Məmmədov,** *Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, kraudfandinq ilə əlaqədar bəzi məsələlərə, qaldırılan suallara cavab olaraq çox qısa arayış vermək istərdim. Birinci oxunuşda səsləndirilən bir məsələ oldu ki, kraudfandinq platformasında saxtakarlığın və insanların aldadılmasının qarşısının alınması üçün hansı tələblər mövcuddur. Bu, birinci oxunuşda qaldırılmış mövzu idi və bu mövzu bir neçə dəfə müxtəlif istiqamətlərdə səsləndirildi. Qısaca olaraq onu deyə bilərəm ki, bu saxtakarlığın qarşısını almaqdan ötrü biz platforma operatorlarına xüsusi tələblər müəyyənləşdiririk. Platformadan istifadə edərkən hansısa bir layihənin maliyyələşməsi üçün təkliflər irəli sürən və layihə təqdim edən layihə sahiblərinə dair məhdudiyyətlər müəyyənləşdirilir. İnvestorların müdafiə mexanizmləri qurulur, maraqlar münaqişəsinin qarşısının alınması üçün müvafiq bəndlər, maddələr öz əksini tapmışdır. Eyni zamanda, Mərkəzi Bank tərəfindən davamlı şəkildə monitorinqin həyata keçirilməsi qanun layihəsində norma olaraq öz əksini tapmışdır.

Platforma operatoruna münasibətdə biz reyestrdə qeydiyyat tələblərini nəzərdə tuturuq və vətəndaş qüsursuzluğu ilə bağlı konkret müddəalar mövcuddur. Layihə sahibinə münasibətdə yoxlama və şəffaflıq tələblərini irəli sürürük. Maliyyə hesabatlılığını tələb olaraq layihə sahibinin üzərində öhdəlik kimi nəzərdə tutmuşuq.

İnvestorların müdafiəsi üçün risklərin açıqlanması, vəsaitlərin mühafizəsi və investisiya limitləri kimi tələblər layihədə öz əksini tapmışdır.

Maraqların münaqişəsinin və sui-istifadənin qarşısının alınması üçün insayd qadağası tələb kimi nəzərdən keçirilmişdir. Belə ki, operator, onun əməkdaşları və yaxınları həmin operatorun idarə etdiyi platformada layihə sahibi ola bilməzlər. Bunun məhdud iştirak və təşviqat qadağası da layihədə öz həllini tapmış məsələlərdən biridir.

Kraudfandinq anlayışında niyə yalnız borc və səhm nəzərdə tutulub? Digər qrant və yaxud hibrid rejimlər niyə layihədə öz həllini tapmamışdır? Məsələ hökumətdə dəfələrlə müzakirə olunmuş bir mövzudur və yekun olaraq Azərbaycan Respublikası hökumətinin gəldiyi qənaət bundan ibarətdir ki, yalnız səhm  və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi əsasları öz həllini tapmalıdır. Belə ki, qrantlar “Qrant haqqında” Qanunun mövzusudur və bu kimi tənzimləmələr bunun kraudfandinq formasından, yaxud da digər formasından asılı olmayaraq artıq “Qrant haqqında” Qanunun tənzimləmə mövzusu olduğundan yenidən həmin mövzuları bura daxil etmək məqsədəuyğun hesab olunmamışdır.

Məhz səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsi isə bu spesifik qanunun bilavasitə investorların hüquqlarının qorunması və kapital bazarlarının alətlərini əhatə etmək məqsədi daşıyır.

Digər bir sual. Platformadan kənar həyata keçirilən maliyyələşmənin qiymətləndirilməsi ilə bağlı dövlətin yanaşmasının nədən ibarət olduğu soruşulur. Yanaşma bundan ibarətdir ki, platformadan kənar maliyyələşmələr həyata keçirilə bilərmi? Bu, artıq digər sahəvi qanunların mövzusudur. Amma ümumi olaraq kraudfandinq platforması vasitəsi ilə

həyata keçirilən maliyyələşmə və bu maliyyələşmədən faydalanan layihə sahibi ilə bağlı ən azından məhkəmə qaydasında bir mübahisə yarandığı halda artıq məhkəmələr və digər tərəflər üçün aydın olan məqamlar ondan ibarətdir ki, dövlət kraudfandinq platformasının hüquqi və qanuni əsasını qəbul edib. Deməli, bundan irəli gələn münasibətlərin tənzimlənməsini artıq dövlət həm investor, həm də layihə sahibi üçün qanuni tələb kimi nəzərdən keçirdiyinə görə bu növ mübahisələrdə artıq istinad edəcəyimiz tənzimləmə mövzusu həll olunmuş olur.

"İqtisadi stimullarla bağlı niyə məhz kraudfandinq platforması seçilməlidir?" sualına gəlincə, bizə təqdim olunan layihədə, hazırda ikinci oxunuşda olan digər layihədə Vergi Məcəlləsinə dəyişikliklər nəzərdə tutulur. Orada kraudfandinq platforması vasitəsi ilə həyata keçirilən fəaliyyətdən əldə olunan mənfəətin və gəlirin vergidən azad olunması normaları nəzərdə tutulmuşdur.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elmin müəllim.

Hörmətli həmkarlar, səsverməyə keçirik. İndi biz 6-cı məsələnin səsverməsinə keçirik. Bilirsiniz ki, ikinci oxunuşda maddələr üzrə səsvermə olacaq. Bu qanun layihəsində 23 maddə var. Mən onları fəsil-fəsil səsə qoyacağam. Xahiş edirəm, indi I fəsilə münasibət bildirəsiniz. Söhbət 6-cı məsələdən gedir – Kraudfandinq haqqında qanun layihəsi. Burada yeddi fəsil var. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

III fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

Mən IV fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil qəbul edildi.

V fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

V fəsil qəbul edildi.

VI fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

Nəhayət, VII fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, biz 7-ci məsələdə olan qanun layihəsinə səs verməliyik. Yadınıza salım, bu, Mülki Məcəllədə və daha 3 qanunda, "Dövlət rüsumu haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Maddələr üzrə səs verəcəyik. Bu məsələdəki qanun layihəsində 13 maddə var. Mən onları əvvəlcə dörd-dörd səsə qoyuram. Buyurun, ilk dörd maddəyə səs verin, münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi.

Növbəti dörd maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

Bizim beş maddəmiz qalır. Mən onların hamısını birlikdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi.

Hörmətli həmkarlar, indi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti qanun layihəsinin səsverməsinə keçirik. Bu bizim 8-ci məsələdə olan qanun layihəmizdir. Bu qanun layihəsində 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Buyurun, ilk üç maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi.

İndi qalan üç maddəyə, yəni 4-cü, 5-ci və 6-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Beləliklə, Əmək Məcəlləsində və Mülki Məcəllədə, “Valyuta tənzimi haqqında” Qanunda və daha 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz indi 9-cu məsələnin – Vergi və Miqrasiya məcəllələrində, “Sosial sığorta haqqında” Qanunda və daha 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin səsverməsinə keçirik. Deməli, qanun layihəsi 7 maddədən ibarətdir. Mən onların üçünü bir, dördünü də bir səsə qoyacağam.

İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Bunlar qəbul edildi.

İndi isə qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi. Çox sağ olun.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Qanun layihəsinə ikinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Gündəliyimizin 10-cu məsələsidir və bu məsələ "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid müəllim Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, qanun layihəsi haqqında ikinci oxunuşda cəmi bir dəqiqəlik qısa təqdimatım olacaq. Lakin öncə, hörmətli sədr, iki xüsusi qeydimi bildirmək istəyirəm.

Sizin tapşırığınızla Milli Məclisin Hibrid təhlükələrə qarşı mübarizə üzrə komissiyasının moderatorluğu, rəhbərliyi ilə çox uğurlu bir tədbir keçirildi, parlament nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının, ekspert cəmiyyətinin təmsilçiləri iştirak etdilər. Həmin ictimai dinləmədə qeyd olunduğu kimi, – burada səsləndirmək mütləq yerinə düşər, – Milli Məclis rəqəmsal sistemlərə, transformasiyaya ən çox addımlar atan, bu istiqamətdə mühüm işlər görən bir hakimiyyət institutudur. Milli Məclisin heç bir qanun layihəsinin kağız daşıyıcıda verilməməsi, əksinə, bunların hamısının elektron əvəzləyicidə olması, iclasların stenoqramlarının anındaca sistemdə yerləşməsi, saytın əlçatanlığı – bütün bunlar həm vaxta, həm də dövlət büdcəsi vəsaitlərinə qənaətdir, həmçinin operativlikdir və dövlət hakimiyyəti institutları ilə yaxşı əlaqələr sistemi üçündür. Biz bunu mütləq vurğulamalıyıq, çünki məhz təmsil etdiyimiz qurumun dəyişikliyi də dövlət sferasında olan inkişafın bir hissəsidir.

İkincisi. Burada bəzən parlamentə olan hansısa ictimai tənqidlərdən haqlı-haqsız danışılır. Amma təkcə son iki ayda Milli Məclisin gündəliyinə diqqət edək. Əminəm ki, sabah sessiyanın başa çatması ilə əlaqədar Siz həmişəki kimi, uğurlu bir yekun edəcəksiniz. Uşaqların sosial mediadan, o cümlədən ondan öncə böyüklərin qorunmasından, məcburi köçkünlərin həyatı ilə bağlı tarixi qanun aktından tutmuş bu gün kibertəhlükəsizlik məsələləri, torpaqların birləşməsi, əmlak sahəsi ilə bağlı qanunvericilik aktları – hamısı Milli Məclisin cəmiyyətimizin, xalqımızın mənafelərinə bağlı

olan layihələridir. Onların hər biri geniş təqdimatlara da, müzakirələrə də layiqdir.

Hörmətli sədr, biz iyulun 7-də "İnformasiya, informasiyalaşdırma, informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişikliklər edilməsi ilə bağlı layihənin birinci oxunuşu zamanı geniş təqdimat etmişdik. Sizin vurğuladığınız kimi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbər şəxslərinin də iştirak etdiyi komitə və plenar iclaslarda sanballı fikirlərini bölüşən hörmətli millət vəkilləri – Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Hikmət Babaoğlu, Fazil Mustafa, Rizvan Nəbiyev, Müşfiq Məmmədli və Sevil Mikayılova xüsusi vurğulayıblar ki, sənəd Azərbaycanın rəqəmsal suverenliyinin hüquqi əsaslarını möhkəmləndirir, kiberməkanda kritik informasiya infrastrukturunun, maliyyə sisteminin və vətəndaşların fərdi məlumatlarının qorunması üçün zəruri normativ bazanı və institutların fəaliyyətini gücləndirir, kibertəhlükəsizlik sahəsində Rəqəmsal İnkişaf Şurasının müəyyən etdiyi strateji prioritetlərə tamamilə uyğun gəlir.

Ona görə də ümidvarıq ki, layihə ikinci oxunuşda da Milli Məclisin etimadını qazanacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Zahid müəllim.

Hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin. Qanun layihəsini əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb, ona görə də səsverməyə keçirik. Bu qanun layihəsində 5 maddə var. Mən onların üçünü bir, ikisini də bir səsə qoyacağam. Xahiş edirəm, 3 maddəyə, yəni 1-ci, 2-ci, 3-cü maddələrə səs verəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

Qalan 2 maddəni də səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi, çox sağ olun.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Mən qonaqlarımıza təşəkkürümü bildirirəm. Sizi hörmətlə yola salırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizi davam etdiririk. Gündəlikdə olan növbəti 2 məsələ cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. 11-ci məsələ Toxumçuluq haqqında qanun layihəsidir, 12-ci məsələ isə "Seleksiya nailiyyətləri haqqında" Qanunda və digər 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələ ilə əlaqədar Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini hörmətli Seymur Səfərli buradadır və digər şəxslər də bizim iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, təklif edirəm ki, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə müzakirə aparaq. Həmişə olduğu kimi, ayrılıqda da səsverməni keçirək. Qanun layihəsinə Aqrar siyasət komitəsində baxılıb. Komitənin sədri hörmətli Tahir müəllimə söz vermək istəyirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, keçən plenar iclasda bu qanun layihəsi birinci oxunuşda geniş müzakirə olundu. Deputat həmkarlarım öz müsbət münasibətlərini bildirdilər. Buna görə deputat həmkarlarıma öz minnətdarlığımı bildirirəm.

Toxumçuluq haqqında Azərbaycan Respublikasının qanun layihəsi 6 fəsildən, 27 maddədən ibarətdir. Qeyd olunduğu kimi, qanun layihəsi toxumun istehsalı, emalı, tədarükü, saxlanılması, daşınması, ticarət

dövriyyəsi, idxalı və ixracı, sertifikatlaşdırılması və keyfiyyətinə nəzarətlə bağlı yaranan münasibətləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən subyektləri və dövlət orqanlarının fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Əvvəlki qanundan fərqli olaraq yeni layihədə "Əsas anlayışlar" maddəsi xeyli təkmilləşdirilib. 1-ci maddəyə 30-a yaxın əlavə anlayış daxil edilmişdir. Sortun rayonlaşdırılması, tarla müfəttişi, toxum əməliyyatçısı, toxum müfəttişi, toxumun sertifikatlaşdırılması və digər anlayışların layihədə əksini tapması inkişafla, günün reallıqları ilə əlaqədardır.

Qanun layihəsinin toxumçuluq sahəsində dövlət tənzimlənməsi və nəzarətinə aid II fəslində toxumçuluğun elmi təminatı, toxumçuluq subyektlərinin qanuni mənafelərinin və hüquqlarının qorunması, toxumçuluğa dövlət dəstəyi və nəzarəti, toxumçuluğun maliyyələşdirilməsi, toxum müfəttişlərinin vəzifələri və hüquqları aydın ifadə olunmuşdur.

Qanunun III fəsili toxumçuluğun inkişafını, toxum əməliyyatçılarının qeydiyyata alınmasını, onların vəzifə və hüquqlarını, toxum ehtiyatları fondunun yaradılmasını, saxlanması və istifadəsi məsələlərini özündə ehtiva edir.

Toxum əməliyyatçılarının qeydiyyatdan keçməsi, toxum istehsalı, saxlanması və satışı, Elektron Hökumət İnformasiya Sistemi ilə sənədlərin və məlumatların toplanması məsələlərinə aydınlıq gətirilir.

Toxumçuluğun sertifikatlaşdırılması sahənin inkişafı, məhsuldarlığın artırılması üçün vacib və əhəmiyyətlidir. Toxumların sortluq və səpin keyfiyyətlərinin müəyyən edilməsi, laboratoriya müayinəsi və ekspertizası, super elit və elit toxum sortlarının əldə edilməsi qarşıya qoyulan başlıca vəzifədir. Qanun layihəsinin IV fəsilində bu vəzifələr ümumiləşdirilir.

Toxumçuluq fəaliyyəti həm məsuliyyətli, həm də şərəfli bir vəzifədir. Orijinal və elit toxum istehsalı seleksiyaçılardan yüksək elm və peşəkarlıq tələb edir. Toxumların istehsalı, emalı və məhv edilməsi, ticarət dövriyyəsi, idxalı və ixracı, qablaşdırılması və etiketləşdirilməsi qaydaları qanunun VI fəsilində geniş izah edilmişdir.

VI fəsil – Yekun müddəalar isə toxumçuluq haqqında qanunvericiliyin pozulmasına görə tətbiq edilən cərimələrin bölünmə və köçürülmə qaydasını, toxumçuluq fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş şahadətnamələrin hüquqi və qüvvədə olma müddətini müəyyən edir.

Qanun layihəsində əksini tapan müddəalar aqrar sektorun dayanıqlı inkişafına təsir göstərməklə istehsal edilən toxumların keyfiyyət göstəricilərinin yüksəldilməsinə, vahid toxum sisteminin formalaşaraq tənzimləmə və nəzarət tədbirlərinin asanlaşdırılmasına, özəl seleksiyanın və özəl ilkin toxumçuluğun inkişafı üçün rəqabət mühitinin genişlənməsinə, yerli toxumçuluğun inkişaf etdirilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, ixracın artırılmasına, keyfiyyətli toxumdan istifadə hesabına yüksək məhsul əldə edilməsinə xidmət edir.

Qanun layihəsi komitədə müzakirə olunub, plenar iclasın müzakirəsinə tövsiyə edilmişdir. Nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Siz iki qanun layihəsi haqqında məlumat verdiniz, Tahir müəllim.

Hörmətli həmkarlar, 12-ci məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, əslində, komitənin rəyini bildirmək üçün mən komitə sədrinin müavini hörmətli Azər müəllim Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox hörmətli xanım sədr, hörmətli həmkarlar, layihə ilə seleksiya və toxumçuluq sahəsində vahid informasiya ehtiyatının hüquqi əsasları müəyyən edilir. Toxum əməliyyatçılarının qeydiyyatı və toxum sertifikatlaşdırılması üzrə dövlət rüsumları təsbit olunur, toxum əməliyyatçılarının qeydiyyatına dair çıxarış sahibkarlıq fəaliyyətinə verilən icazələr siyahısına daxil edilir. Belə ki, “Dövlət rüsumu haqqında” Qanuna əlavə edilən 18.89-cu maddəyə əsasən seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sistemindən çıxarışın verilməsi üçün 50 manat, çıxarışın dublikatının verilməsi üçün 10 manat, toxumların sort və səpin keyfiyyətlərini təsdiq edən sertifikatın verilməsi üçün isə 25 manat dövlət rüsumu müəyyən edilir.

Bundan əlavə, “Lisenziyalar və icazələr haqqında” Qanunda sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına toxum əməliyyatçılarının qeydiyyata alınmasına dair informasiya sistemindən çıxarış da əlavə olunur.

Qanun layihəsi ilə bağlı komitənin rəyi müsbətdir və onun ikinci oxunuşda qəbul edilməsini dəstəkləyirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, məlumatı, rəyi dinlədik. Biz indi qanun layihəsinə ikinci oxunuşda əsas kimi səs verməliyik. Buyurun, əsas kimi münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 104 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Beləliklə, 11-ci məsələdə olan Toxumçuluq haqqında qanun layihəsini əsas kimi qəbul etdik.

İndi isə biz 12-ci məsələdə olan qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. İndi isə biz maddələr üzrə səs verməliyik. 11-ci məsələdə – Toxumçuluq haqqında qanun layihəsində 6 fəsli var. Əslində, 27 maddədir. Ancaq biz onları fəsil-fəsil səsə qoyacağıq. İndi isə xahiş edirəm, preambula və I fəsilə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Preambula və I fəsil qəbul edildi.

İndi isə mən II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Fəsil qəbul edildi.

İndi isə III fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

IV fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə V fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, VI fəsil – sonuncu fəsil səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Son fəsil də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Toxumçuluq haqqında qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

İndi biz 12-ci məsələdə olan qanun layihəsinin səsverməsinə keçirik. Bu qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. Buyurun, 1-ci və 2-ci maddələrə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi. Çox sağ olun.

İndi isə qanun layihəsi ikinci oxunuşda bütövlükdə səsə qoyulur. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Mən qonaqlarımıza təşəkkür edirəm. Sizi hörmətlə yola salırıq. Çox sağ olun.

Hörmətli həmkarlar, bizim növbəti 2 məsələmiz möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu qanun layihələri də mahiyyətcə bir-birinə yaxındır. Bunlar 13-cü və 14-cü məsələlərdir. 13-cü məsələ Balıqçılıq haqqında qanun layihəsidir, 14-cü məsələ isə "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Yenə də birgə təqdimat, müzakirə olsun, səsvermələr isə ayrı keçirilsin.

Balıqçılıq haqqında qanun layihəsinə, bilirsiniz ki, Aqrar siyasət komitəsində baxılıb. Tahir müəllim, yenə də sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, Balıqçılıq haqqında qanun layihəsinin mahiyyəti və əhəmiyyəti haqqında birinci oxunuş zamanı ətraflı məlumat verildi. Çıxış edən deputatlarımız bu qanunun əhəmiyyəti, ərzaq təhlükəsizliyinin təmin olunması, yeni iş yerlərinin yaradılması, sahibkarlığın inkişafı sahəsində rolu barədə ətraflı söz açdılar, dəyərli fikirlər söylədilər. Obyektiv fikirlərinə görə deputat həmkarlarıma öz minnətdarlığımı bildirirəm.

Ölkədə balıqçılığın, balıq və digər su bioresurslarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edən 8 fəsil və 30 maddədən ibarət olan qanun layihəsi bu günümüzün tələblərini və reallıqlarını özündə əks etdirməklə bilavasitə sahənin inkişafına yönəldilmişdir.

Qanunun ümumi müddəalarını əks etdirən I fəsildə “Əsas anlayışlar” maddəsi xeyli təkmilləşdirilmiş, sahənin tələblərinə uyğun balıqçılıq obyektləri, balıq mühafizə, vətəgə sahəsi, balıqçılıq infrastrukturu, balıqçı gəmisi və digər yeni anlayışlar əlavə edilmişdir.

Qanunun II fəsilində balıqçılıq sahəsində dövlət siyasətinin əsas prinsiplərinə, dövlətin vəzifələrinə, dövlət nəzarətinə aydınlıq gətirilir.

Balıqçılıq sahəsində məhsuldarlığın artırılması və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi ilə istehsal metodlarının və innovativ texnologiyaların təşviqi, daxili bazar tələbatının ödənilməsi və ixrac potensialının artırılması, balıqçılıq və akvakultura sahəsində idarəetmənin rəqəmsallaşdırılması, balıq və digər su bioresursları ehtiyatının tükənməsinin qarşısının alınması və digər çox vacib vəzifələr balıqçılıq sahəsində dövlət siyasətinin əsas prinsipi hesab edilir.

Dövlət balıqçılıq sahəsində dövlət proqramlarının, strategiyalarının, milli fəaliyyət planlarının, konsepsiyaların və digər sənədlərin hazırlanmasını və həyata keçirilməsini, dövlət nəzarətinin gücləndirilməsini, dövlət dəstək tədbirlərinin göstərilməsini, hüquqpozmaların qarşısının alınmasını və aradan qaldırılmasını əsas vəzifə kimi qarşıya qoyur.

Qanunun balıq ovu, akvakulturası və ticarət dövriyyəsi ilə bağı III fəsilində balıq ovunun məqsədləri, balıq ovunun həyata keçirilməsi

qaydası, kvota verilməsi, akvakultura fəaliyyətinin tənzimlənməsi, həyata keçirilməsi, qeydiyyat şəhadətnamələrinin alınması qaydaları, balıqçılıq obyektlərinin ticarət dövriyyəsinə daxil edilməsi üsulları barədə aydın təsəvvür yaradılır və fikir formalaşdırılır.

Qanunun balıqçılıq subyektlərinin hüquq və vəzifələrinə həsr olunmuş IV fəsili balıqçılıq subyektlərinə normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada ovlanmış və akvakultura fəaliyyətindən əldə edilmiş məhsullara sahiblik, istifadə və sərəncam hüquqlarını sərbəst həyata keçirmək imkanı verir və balıqçılıq sahəsini tənzimləyən normativ hüquqi aktlara əməl olunması tələbini qarşıya qoyur. Göstərilir ki, balıq ovu balıqçılıq gəmilərindən, texniki vasitələrdən, su obyektlərindən istifadə qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməli, balıqçılıq fəaliyyəti üzrə sanitariya, baytarlıq, fitosanitar və karantin qaydalarına riayət edilməli, uçot və hesabat işləri qaydasında aparılmalıdır.

Balıqartırmada, balıq və digər su bioresurslarının məskunlaşmasında balıqçılıq su obyektlərinin normal vəziyyətdə olması əhəmiyyətlidir. Su obyektlərinin balıqçılıq ehtiyatları üçün istifadəyə verilməsi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun  həyata keçirilir.

Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi, genofondunun mühafizəsi, su obyektlərinə yeni növ balıqların və hibrid formalarının buraxılması, sanitariya, hidrotexnika və meliorasiya tədbirlərinin görülməsi, monitorinqlərin aparılması, ekoloji vəziyyətin qiymətləndirilməsi, balıqçılıq su obyektləri üzərində inşa edilmiş su təsərrüfatı obyektlərinin istifadəyə verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən həyata keçirilir. Bu qaydalar və tələblər qanunun V fəsilində yer alır.

Qanunun VI fəsili balıqçılığın iqtisadi tənzimlənməsini, VII fəsili beynəlxalq əməkdaşlığı, VIII fəsili yekun müddəalarını əsaslandırır.

Balıq və digər su bioresurslarının artırılmasının, mühafizəsinin və balıqçılığın elmi təminatının dövlət büdcəsi və büdcədənkənar ödəmələr hesabına maliyyələşdirilməsini, akvakulturanın iqtisadi stimullaşdırılmasını, Xəzər dənizində balıq və digər su bioresurslarının artırılmasını, istifadəsi və mühafizəsi ilə bağlı beynəlxalq əməkdaşlığı, bu qanunun pozulmasına görə məsuliyyəti özündə ehtiva edir.

Mən deputat həmkarlarımdan qanun layihəsinə ikinci oxunuşda münasibət bildirməyi xahiş edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, bu məsələyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Birinci oxunuş zamanı komitəmizin üzərinə düşən hissə ilə bağlı ətraflı məlumat verdim. İkinci oxunuşda da deputat həmkarlarımı dəstəkləməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, biz indi 14-cü məsələnin təqdimatına keçirik. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Yenə də mən hörmətli Azər Badamova söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Badamov**. Minnətdaram. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Balıqçılıq haqqında yeni qanunun tətbiqi ilə əlaqədar “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr

haqqında" qanunlarda uyğunlaşdırıcı dəyişikliklərin edilməsini nəzərdə tutur.

Layihəyə əsasən "Dövlət rüsumu haqqında" Qanunun 18.69-cu maddəsi yeni redaksiyada verilərək akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə 70 manat dövlət rüsumu müəyyən edilir. Bu rüsum qeydiyyat zamanı həyata keçirilən qiymətləndirmə, ekspertiza və inzibati prosedurlarla bağlı xərclərin qismən kompensasiyasına, eyni zamanda, bu sahədə vahid hüquqi yanaşmanın təmin olunmasına xidmət edir. Bununla yanaşı, "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklik edilərək sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsi əlavə edilir. Bu dəyişiklik akvakultura sahəsində dövlət nəzarətinin gücləndirilməsinə, su bioresurslarından istifadənin daha səmərəli tənzimlənməsinə və fəaliyyətin hüquqi əsaslarla həyata keçirilməsinə şərait yaradacaq.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ikinci oxunuşda müzakirə olunaraq Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Hörmətli həmkarlarımı qanun layihəsini dəstəkləməyə dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Tahir müəllim, sizin komitənizdə də bu məsələyə baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Tahir Rzayev.** Hörmətli sədr, komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihələrini əsas kimi qəbul etməliyik, münasibət bildirməliyik. Xahiş edirəm, indi Balıqçılıq haqqında qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 14-cü məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Mən bu qanunun ikinci oxunuşu çərçivəsində fikirlərimi deməzdən öncə komitənin sədri, hörmətli həmkarım Tahir müəllimə mükəmməl təqdimata görə təşəkkür edirəm. Eyni zamanda, Sadiq müəllimə də təşəkkür edirəm ki, bu gün dünyada, ölkəmizdə balıq və digər su bioresurslarının ovunun və akvakulturanın təşkili, idarə olunması, balıq və digər su bioresurslarının

artırılması sahəsində hüquqi tənzimləmə haqqında çox önəmli bir qanun layihəsi mükəmməl səviyyədə müzakirəmizə çıxarılıb. Eyni zamanda, bu qanun layihəsi həm dünyanın 2030-cu il gündəliyi baxımından, həm qlobal səviyyədə biomüxtəlifliyin qorunması, bioresursların davamlı idarə olunması, həm də ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından qanunvericiliyə mühüm töhfə olacaqdır. Sözsüz ki, mən də, həmkarlarım da bu qanun layihəsini məmnuniyyətlə dəstəkləyəcəyik.

Mənim bu qanun layihəsi ilə bağlı bir təklifim var. Bu, sual da ola bilər. Əsas anlayışlar hissəsində "həvəskar balıq ovu" sözləri qeyd edilib. Ötən iclasda Sadiq müəllim də qeyd etdi, Azərbaycanda bu, hələ kütləvi hal deyil. Amma dünyada – Avropada, qardaş Türkiyədə həvəskar balıq ovu ildən-ilə daha da sürətlənir. Bu həvəskar balıqçılıq Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci, 12-ci, 14-cü, 15-ci maddələrində də öz əksini tapıbdır. Gələcəkdə ayrıca olaraq həvəskar balıqçılıqla bağlı bir qanun qəbul olunacaqmı? Yoxsa burada hər hansı bir maddənin, əlavə bir fəsilin əlavə olunmasını gözləyə bilərik? Çünki Avropa Birliyinə daxil olan ölkələrdə ayrıca olaraq həvəskar balıqçılıqla bağlı vahid prinsip, çərçivə qanun var. Amma buna baxmayaraq, ayrı-ayrı ölkələrdə, məsələn, Almaniyada həvəskar balıqçılıqla, balıq ovu ilə bağlı çox sərt tələblər mövcuddur.

Qardaş Türkiyədə də bununla bağlı ayrıca qanun var. Sözsüz ki, həvəskar balıqçılıq sahibkarlıq fəaliyyəti deyil, amma gələcəkdə ayrıca bir qanun qəbul olunarsa, həvəskar balıqçılıq anlayışının geniş mənası, eləcə də bunun həyata keçirilməsi qaydası, icazə verilən balıq ovu vasitələri, ov normaları və digər məsələlər orada öz əksini tapar.

Mən, təbii ki, qanun layihəsini dəstəkləyəcəyəm, səs verəcəyəm. Hörmətli Tahir müəllimdən də bu sualıma izahat verməsini xahiş edərdim. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Məlahət xanım. Bununla bağlı suala cavab Ceyhun müəllimdən olacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ceyhun müəllim, Məlahət xanım maraqlı bir məsələ qaldırdı. Xahiş edirəm, buyurun.

**Ceyhun Əliyev**, *Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Balıqçılıq və Akvakultura Mərkəzinin direktoru.*

Çox sağ olun, təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, Məlahət xanımın fikri, doğrudan da, çox önəmlidir. Xüsusən son dövrlərdə bu hal dünyada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) qaydalarında öz əksini tapmışdır. Bizim qanun layihəsinin 6.2-ci maddəsində bu qaydaların həyata keçirilməsi ilə bağlı müddəa qeyd olunmuşdur. Həmin maddədə göstərilən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan qaydalarda həvəskar balıq ovu ilə bağlı qaydalar da öz əksini tapacaqdır.

**Sədrlik edən.** Çox sağ olun.

Məlahət xanım, cavab Sizi...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin, Məlahət xanım fikrini ifadə etsin.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, qismən razı saldı. Azərbaycanda balıqçıların lisenziyası yoxdur. Avropada bütün könüllü həvəskar balıqçılar müəyyən kurslar keçir, lisenziyalar alır, ildə üzvlük haqqı ödəyirlər. Orada hansı fəsildə hansı balıqları tutmağa icazə verilir və sair kimi qaydalar var.

Azərbaycanda da, təbii ki, biz bu məsələlərə çox ciddi riayət etməliyik. Ona görə mən sual verdim. Çox sağ olun, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz səsverməyə keçirik. İndi 13-cü məsələnin maddələrinin səsverməsinə keçirik. Burada 8 fəsil, əslində, 30 maddə var. Mən onları fəsil-fəsil səsə qoyacağam. İndi xahiş edirəm, 13-cü məsələdə preambulaya və I fəsilə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, preambula və I fəsil qəbul edildi.

İndi isə II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

II fəsil də qəbul edildi.

İndi isə mən III fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

III fəsil də qəbul edildi.

Xahiş edirəm, IV fəsilə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil qəbul edildi.

V fəsilə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

V fəsil qəbul edildi.

İndi isə VI fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

VII fəsili səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi VIII fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 12.32 dəq.)

| | |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Balıqçılıq haqqında qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti 14-cü məsələdə olan qanun layihəsinin səsverməsinə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi. Çox sağ olun.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Beləliklə, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 15-ci məsələsinə keçirik. Bu məsələ Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə yenə də Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, buyurun, məlumat verin.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, təqdim olunan qanun layihələrinə edilmiş dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadə edilməsini, dövlət və vətəndaş arasında qarşılıqlı razılıq əsasında əmlak mübadiləsinin aparılmasını nəzərdə tutur. Belə ki, dövlət mülkiyyətində olan torpaq sahələri, qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan torpaq sahələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın qərarı ilə dəyişdirilə bilər. Bu hallar qanunla özəlləşdirilməsi qadağan olunan və

dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə şamil edilmir. Alqı-satqı zamanı bazar qiyməti nəzərə alınır və “Qiymətləndirmə fəaliyyəti haqqında” Qanuna uyğun olaraq, qiymətləndirici tərəfindən həyata keçirilir. Nəzərə alınmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə baxılmışdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bu gün bizə hörmətli Nurlan Həsənov bildirəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, ilk oxunuş zamanı layihə barədə kifayət qədər geniş məlumat verilmişdir. Layihənin mətnində heç bir dəyişiklik yoxdur, olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim.

İkinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Azər Badamov. Azər müəllim, komitənin rəyini Siz bildirəcəksiniz. Buyurun.

**Azər Badamov.** Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Məcəlləsində və “Qiymətləndirmə fəaliyyəti haqqında” Qanunda uyğunlaşdırıcı dəyişikliklərin edilməsini nəzərdə tutur. Layihənin məqsədi dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahələrinin, qanunla müəyyən edilmiş istisnalar nəzərə alınmaqla, qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlak və ya torpaq sahələri ilə dəyişdirilməsinin hüquqi əsaslarını müəyyən etməkdir.

Eyni zamanda, dəyişdirilən əmlakın bazar qiyməti əsasında müstəqil qiymətləndirilməsi, habelə dövlət orqanları və bələdiyyələrin

qiymətləndirmə fəaliyyəti üzrə sifarişçi statusu əldə etməsi nəzərdə tutulur. Bu dəyişikliklər dövlət əmlakının daha səmərəli idarə olunmasına, torpaq bazarında dövriyyənin genişlənməsinə və iqtisadi fəallığın artırılmasına xidmət edəcək.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində ikinci oxunuşda müzakirə olunaraq plenar iclasa tövsiyə edilmişdir. Komitənin rəyi müsbətdir. Qanun layihəsini ikinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, biz məlumatları dinlədik, məlumata rəyləri bildik. İndi isə biz bu qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Buyurun, mən səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşlarımızın mülkiyyət hüquqlarının qorunması, daşınmaz əmlakın elektron reyestrinin yaradılması, qiymətləndirmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və şəffaflığın artırılması istiqamətində daim mühüm qərarlar qəbul olunur.

İkinci oxunuşda müzakirəyə təqdim edilən qanun layihəsi dövlət mülkiyyətində olan əmlakın, o cümlədən dövlət torpaqlarının qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla, o cümlədən torpaq sahələri ilə dəyişdirilə bilməsinin hüquqi əsaslarını yaradır. Həm Torpaq Məcəlləsinə təklif olunan 90-cı maddənin 1.1-ci hissəsinə, həm də Mülki Məcəlləyə irəli sürülən 155.5-ci əlavəyə görə, dövlət və vətəndaşlar arasında qarşılıqlı razılıq üzrə daha çevik əmlak mübadilələri yaranır.

Müzakirə etdiyimiz layihənin aktuallığını təsdiqləyən ən mühüm göstərici əmlak xidmətinin rəsmi statistikasıdır. Quruma 2025-ci il ərzində 10 min 877 hektar torpaq sahəsinin kateqoriyasının və məqsədli istifadə təyinatının dəyişdirilməsi ilə bağlı 734 müraciət daxil olub. Yalnız 11 müraciət üzrə 225,6 hektar torpaq sahəsinin kateqoriyası Nazirlər Kabinetinin sərəncamı ilə dəyişdirilib. Dövlət torpaqları ilə xüsusi mülkiyyətdə olan torpaq və əmlakın qarşılıqlı razılıq əsasında əvəzləşdirilməsi iqtisadi səmərəliliyi artıracaq, sosial ədaləti təmin edəcək. Nəticədə daşınmaz əmlak bazarında, doğrudan da, likvidlik artacaq, bank sektoru üçün girov bazası genişlənəcək, sahibkarlıq üçün investisiya imkanları artacaq.

Bir aksiom var. Güclü dövlət, ilk növbədə, vətəndaşların hüququnu iqtisadi dəyərə çevirə biləndir. İnsanlar illərcə zəhmət çəkərək ev tikirsə, istehsal sahəsi yaradırsa, vergi ödəyirsə, yeni iş yerləri açırsa, lakin həmin əmlakı hüquqi baxımdan rəsmiləşdirə bilmirsə, təkcə fərd və ya ailə ziyan çəkmir, iqtisadiyyat da itirir.

Tanınmış iqtisadçı Hernando de Soto deyir ki, kapitalın ən böyük düşməni hüquqi qeyri-müəyyənlikdir. Əgər on minlərcə insanın malik olduğu torpaq və əmlak hüquqi cəhətdən tanınmırsa, o, ölü kapitala çevrilir.

O nə bank üçün girov olur, nə investisiyaya cəlb oluna bilir, nə də iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilir.

2023-cü ildə imzalanan “Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərman əmlak amnistiyası kimi cəmiyyətdə qiymətləndirildi. Onun əsas məqsədi təhlükəsizlik tələblərinə cavab verən, lakin tam rəsmiləşməmiş obyektlərin iqtisadi dövriyyəyə qaytarılması idi. Lakin əmlak xidmətinin məlumatı göstərir ki, 2025-ci ilin oktyabr ayınadək cəmi 18 min 523 müraciət daxil olub, 4956 obyektin istismarına icazə verilib, 3931 obyekt dövlət reyestrində qeydiyyata alınaraq çıxarışla təmin olunub.

Rəqəmlər nəzərdə tutulan 43 min qeyri-yaşayış obyektinin hələ də yarısının rəsmi orqanlara müraciət etmədiyini, yalnız 10 faizinin hüquqi aktlarla təmin olunduğunu göstərir. Fərmanın öz məqsədlərinə çatması üçün hüquqi aktlarla təmin olunduğunu göstərir. Fərmanın öz məqsədlərinə çatması üçün yerdə qalan 90 faiz əmlakın da rəsmiləşdirilməsi vacibdir.

2023-cü il Prezident fərmanının icrası ilə bağlı aparılan təhlillər göstərir ki, dövlət mülkiyyətində olan torpaq sahələrində yerləşən qeyri-yaşayış obyektlərinin 41,5 faizi yerli icra hakimiyyəti başçılarının sərəncamları, 40,9 faizi isə icarə müqavilələri əsasında fəaliyyət göstərir.

Bələdiyyə torpaqlarında yerləşən obyektlərin 58 faizində hüquqi sənəd yalnız bələdiyyə qərarıdır. Eyni araşdırmaya görə, torpaq hüquqlarını rəsmiləşdirə bilməyən respondentlərin 52 faizi bunun səbəbini bürokratik maneələrlə izah edir. Sorğu iştirakçılarının 12,6 faizinin torpaq sahəsinə dair heç bir sənədinin mövcud olmadığını bəyan etməsi qeyri-formal tikinti fəaliyyətinin də yüksək olduğunu göstərir. Ona görə də hazırkı layihə, bundan öncə isə 2025-ci il  iyulun 16-da cənab Prezidentin fərmanı ilə 105

minə qədər insanın mülkiyyətinin qanuni sənədlərlə təmin olunması imkanları və bundan iki məsələ sonra müzakirə edəcəyimiz sənədlər sübut edir ki, dövlət bu sahədə hüquqi münasibətlərdə maraqlıdır.

Bu mənada biz qanun layihəsini alqışlayırıq və çox mühüm tarixi bir sənəd hesab edirik. Ona səs verəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Daha heç kim müzakirəyə yazılmayıb. Hörmətli həmkarlar, mən səsverməyə keçirəm. Bu layihədə 3 maddə var, mən onları bir-bir səsə qoyacağam. Buyurun, indi qanun layihəsinin 1-ci maddəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə sonuncu, 3-cü maddə səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu sonuncu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, odur ki, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, təqdim olunmuş qanunlara edilən dəyişikliklər torpaqdan, texnikadan, sudan, təbii ehtiyatlardan və digər aqrotexniki vasitələrdən

səmərəli istifadə edilməsini nəzərdə tutur və torpaqların parçalanmasının qarşısını alır. Torpaq Məcəlləsinə 13-2-ci maddə əlavə edilir. Həmin maddə torpaqların konsolidasiyasını, kənd təsərrüfatı məqsədi ilə torpaq mülkiyyətçilərinin razılığı və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsini, bölünməsini, sərhədlərinin yenidən müəyyən olunmasını, dəyişdirilməsi nəticəsində mülkiyyət hüququnun yenidən rəsmiləşdirilməsini müəyyən edir.

Hörmətli sədr, keçən iclasda qanun layihələrinə edilmiş dəyişikliklər haqqında geniş danışıldı və deputat həmkarlarım öz fikirlərini bildirdilər. Ona görə əlavə müzakirəyə ehtiyac yoxdur, nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Müzakirədən əvvəl biz gərək hələ iki komitənin rəyinə də qulaq asaq. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Nurlan Həsənov yenə də komitənin rəyini bildirəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov.** Hörmətli xanım sədr, hörmətli Tahir müəllim geniş məlumat verdi. İkinci oxunuşda da Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin layihə ilə bağlı rəyi müsbətdir.

**Sədrlik edən.** Sağ olun.

İqtisadi siyasət, sənaye və  sahibkarlıq komitəsinin rəyi ilə bağlı, Azər müəllim, buyurun. Azər Badamov.

**Azər Badamov.** Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsinin əsas mahiyyəti, hörmətli Tahir müəllimin də qeyd etdiyi kimi, kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası üçün hüquqi mexanizmi yaratmaq, torpaq sahələrinin parçalanmasının

qarşısını almaq və torpaq ehtiyatlarından daha səmərəli istifadəni təmin etməkdir.

Təklif olunan dəyişikliklərlə torpaq sahələrinin mülkiyyətçilərinin razılığı əsasında birləşdirilməsi, bölünməsi, sərhədlərin yenidən müəyyən edilməsi, konsolidasiya nəticəsində yaranan torpaq sahələri üzərində hüquqların dövlət qeydiyyatının təkmilləşdirilməsi nəzərdə tutulur. Həmçinin kənd təsərrüfatı torpaqlarının alqı-satqısı və vərəsəlik yolu ilə bölünməsi zamanı torpaq sahələrinin həddindən artıq xırdalanmasının qarşısının alınması üçün müvafiq məhdudiyyətlər müəyyən edilir. Hesab edirik ki, bu dəyişikliklər aqrar sahədə məhsuldarlığın artırılmasına, torpaq resurslarından səmərəli istifadəyə, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə və kənd təsərrüfatının davamlı inkişafına müsbət təsir göstərəcəkdir. Komitənin rəyi müsbətdir, qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsini dəstəkləməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, təqdimat qurtardı. İndi isə xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi. Çox sağ olun.

Çıxışa yazılan yoxdur, səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsində 5 maddə var. Üçünü bir, ikisini bir səsə qoyacağam. İndi isə xahiş edirəm, ilk 3 maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi.

İndi son iki maddəni, yəni 4-cü, 5-ci maddələri səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz indi gündəliyin 17-ci məsələsinə keçirik. Bu məsələ Torpaq Məcəlləsində, Mülki Məcəllədə, “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Qanunda və digər dörd qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Aqrar siyasət komitəsində baxılmışdır. Tahir müəllim, yenə də söz Sizindir. Buyurun, məlumat verin.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar, qeyd olunan qanun layihələrinə edilmiş dəyişikliklər daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının vahid sistemdə birləşdirilməsini və məlumatların vahid mənbədən əldə edilməsini və saxlanmasını, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini nəzərdə tutur. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun qüvvədə olan redaksiyasında hüquqların qeydiyyatı üçün 10 iş günü kəskin azaldılaraq 1 iş günü olaraq təyin edilir.

Hörmətli sədr, keçən iclasda bu barədə geniş məlumat verildi və deputat həmkarlarım da öz fikirlərini bildirdilər. Çox əhəmiyyətli bir qanundur və nəzərə alınmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə daha iki komitədə baxılıb. Birinci İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Yenə də Azər Badamov bizə komitənin rəyini bildirəcək. Azər müəllim, buyurun.

**Azər Badamov.** Çox hörmətli sədr, hörmətli həmkarlar. Qanun layihəsi ilə daşınmaz əmlakın dövlət kadastrının və reyestrinin vahid informasiya sistemi əsasında aparılması, ilkin və təkrar qeydiyyat anlayışlarının qanunvericiliyə daxil edilməsi, təkrar qeydiyyat müddətinin azaldılması, habelə texniki sənədlərin optimallaşdırılması təklif olunur. Bu dəyişikliklər daşınmaz əmlakın qeydiyyatı sahəsində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə və vətəndaşlar üçün daha çevik prosedurların yaradılmasına xidmət edəcəkdir.

Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ikinci oxunuşda müzakirə edilərək plenar iclasa tövsiyə olunmuşdur. Komitənin rəyi müsbətdir. Qanun layihəsinin ikinci oxunuşda da qəbul edilməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də layihəyə baxılıb. Yenə də Nurlan Həsənov komitənin rəyini bildirəcək. Buyurun, Nurlan müəllim.

**Nurlan Həsənov.** Hörmətli xanım sədr, təqdim olunan qanun layihəsi daşınmaz əmlakın qeydiyyatı sahəsində elektron hökumət modelinin inkişafına töhfə verir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin qanun layihəsi ilə bağlı rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, söz verdiyinizə görə təşəkkür edirəm. Mən xalqımızın maraqlarına cavab verən çox mühüm layihə olduğundan həmkarlarımdan qısa vaxt çərçivəsində anlayış göstərməyi xahiş edirəm.

Daşınmaz əmlak idarəçiliyində yeni hüquqi təminatların yaradılmasına imkan verən hazırkı qanun layihəsi sovet dövründən qalan, xüsusi ilə müstəqillik illərində genişlənən hüquqi, iqtisadi və sosial problemlərin sistemli həllinə yönəlib. Layihəni zəruri edən üç əsas səbəb var.

1. Müxtəlif dövrlərdə bələdiyyə və icra hakimiyyəti orqanlarının qərarları əsasında verilən, lakin sonradan dövlət qeydiyyatına tam daxil edilməyən torpaq və daşınmaz əmlak münasibətlərinin mövcudluğu.

2. Tikinti sektorunda hüquqi boşluqlardan sui-istifadə halları, xüsusi ilə eyni mənzilin bir neçə şəxsə satılması faktları hələ də davam edir.

3. Azərbaycanın sürətlə inkişaf edən daşınmaz əmlak bazarı artıq yeni idarəetmə modelinə ehtiyac duyur.

Daşınmaz əmlak bazarında son 35 ildə vəziyyət köklü şəkildə dəyişib. 1990-cı illərdə istifadəyə verilən yaşayış sahələrinin 45,5 faizi şəhərlərdə, 54,5 faizi kənd yerlərində olduğu halda, 2024-cü ildə 90,3 faizi şəhər yerində, 99,7 faizi isə kənd ərazilərinə aiddir. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanın ümumi mənzil fondu 2003-cü ildə 125 milyon kvadratmetr olduğu halda, artıq ötən il 230,4 milyon kvadratmetrə

çatıb. Ölkədə bir nəfərə düşən orta yaşayış sahəsi 17,6 kvadratmetrdən 22,6 kvadratmetrə yüksəlib.

Azərbaycanda mülkiyyət münasibətləri yeni mərhələyə daşınmalıdır və bu islahatın əsas məqsədi dövlət xidmətlərinə çıxışı sürətləndirmək, burada qeyd olunduğu kimi, mülkiyyətin hüquqi müdafiəsini gücləndirmək və daşınmaz əmlakın qeydiyyatı, kadastr uçotu sahəsində idarəetmə modelini təkmilləşdirməkdir.

Layihədə birinci qrup dəyişikliklər daşınmaz əmlakın dövlət kadastrı ilə dövlət reyestri arasında inteqrasiyanın gücləndirilməsidir. Yəni indiyədək müxtəlif informasiya bazalarında saxlanılan məlumatların vahid sistemdə birləşdirilməsi torpaq sahələrinin sərhədlərinin hüquqi statusunun və texniki göstəricilərinin daha dəqiq və operativ idarə edilməsinə imkan yaradır. Xüsusi ilə də kənd rayonlarında torpaq və əmlak sərhədlərinin plan xəritəsindəki natamamlıqlar vətəndaşları, dövlət orqanlarını və məhkəmə sistemini hədsiz müraciət yükü ilə üzləşdirirdi. Yeni qanun layihələri dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi hesabına vətəndaşın eyni məlumatı müxtəlif qurumlara dəfələrlə təqdim etmək zərurətini aradan qaldırır. Layihənin ən mühüm yeniliklərindən biri təminat qeydi institutudur. Sadə dillə desək, layihənin 17.1-ci maddəsində göstərilir ki, mənzil alan vətəndaş artıq hüququnu binanın tikintisi başa çatdıqdan sonra deyil, müqavilə bağlandığı andan etibarən dövlət reyestrində hüquqi təminat altına ala biləcək. O cümlədən 17–1.2-ci maddəyə görə, tikintisi başa çatmamış binada hər bir pay üzrə yalnız bir təminat qeydi aparıla bilər, yəni eyni mənzilin bir neçə şəxsə satılması riski sıfıra endirilir. Təminat qeydi 3 iş günü müddətində aparılır. Qeyd aparılmış şəxs öz hüquqlarını notarial qaydada başqasına ötürə bilər.

Dəyişiklikləri zəruri edən son illərdə 20-dən çox tikinti şirkəti rəhbərinin cinayət məsuliyyətinə cəlb edilməsi, 5250 vətəndaşın zərərçəkmiş şəxs kimi tanınmasıdır. Belə hadisələr bir ailənin problemi olmaqla yanaşı, bazarın etibarlılığına da zərbə vurur, dövlət institutlarına inama təsir göstərir, vicdanlı tikinti şirkətlərinin də nüfuzuna xələl gətirirdi.

Artıq mənzil alıcısı ilə tikinti şirkəti arasında yaranan hüquqi münasibətlər təminat qeydi ilə tam təkmilləşdi və dediyimiz kimi, sistemdə öz əksini tapır. Nəzərə alaq ki, tikinti sahəsi ÜDM-də 6,5 faizlik bir çəkiyə malikdir.

Ən sonda layihənin ən vacib yeniliyi hər birimizin qarşılaşdığımız daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı müddətinin 10 iş günündən 1 iş gününə endirilməsidir. Nəticədə vətəndaş günlərcə müxtəlif qurumların qapısını döyməyəcək, sahibkar investisiya layihəsini daha tez reallaşdıracaq, bank və ipoteka əməliyyatları daha operativ aparılacaq, alqı-satqı prosesində vaxt itkisi və əlavə xərclər minimuma enəcək. Rəsmi məlumata görə, təkcə 2025-ci ildə ölkə üzrə 364 min 136 dövlət qeydiyyatı əməliyyatı həyata keçirilib. Hər gün orta hesabla mindən çox əməliyyat gerçəkləşdirilir. Almaniya, Estoniya, Sinqapur onillər öncə bu modeli tətbiq edib. Bu, qeyd olunduğu kimi, həm də kağız daşıyıcılarından imtina imkanları yaradır. Çox inanırıq ki, layihə xüsusi ilə bələdiyyə aktları ilə verilən və hələ də qeydiyyatsız olan əmlakların da hüquqi status qazanması üçün yol açır. Ölkəmizdə qeydiyyatsız ev...

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha heç kim yazılmayıb. Biz səsverməyə keçirik. Qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Bu qanun layihəsi 7 maddədən ibarətdir. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam.

İndi isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə mən qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi. Çox sağ olun.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, saat 1-dir. Əslində, fasilə vaxtıdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz? Hamı razıdır? Çox sağ olun.

Hörmətli həmkarlar, indi biz gündəliyin 18-ci məsələsinə keçirik. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli Sahibə xanım, birinci oxunuşda komitəmizin nümayəndəsi bu barədə geniş məlumat vermişdi. Qısaca xatırlatmaq istəyirəm ki, həm bu gün müzakirə olunan bir sıra qanunların tətbiqi ilə bağlı, eyni zamanda, sonuncu dəfə Cinayət Məcəlləsinə etdiyimiz dəyişikliklə bağlı indi İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklər təklif olunur. Yəni faktiki olaraq bu gün İnzibati Xətalar Məcəlləsinə edilən o dəyişikliklər bizim qəbul etdiyimiz qanunların tələbindən irəli gəlir. Nəzərə almağınızı xahiş edirəm. Komitəyə hansı isə bir təklif, irad daxil olmamışdır. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, gəlin, qanun layihəsinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi iki maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti 19-cu məsələ "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılıb. Mən komitə sədri hörmətli Musa müəllim Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qanun layihəsi barədə birinci oxunuşda hörmətli millət vəkillərinə tərəfimizdən ətraflı məlumat verilmişdir.

Xatırlatmaq istəyirəm ki, qanun layihəsinin hazırlanmasında məqsəd istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın təkmilləşdirilməsinə və beynəlxalq normalara uyğunlaşdırılmasına yönəlmişdir.

Birinci oxunuş zamanı hörmətli millət vəkili Elçin Mirzəbəyli çıxış edərək qanun layihəsini dəstəkləmiş, eyni zamanda, öz təkliflərini də vermişdir. Hörmətli deputatımızın təklifləri qanun layihəsinin subyekti ilə müzakirə olunmuşdur və belə bir ümumi razılığa gəlinmişdir ki, növbəti qanun layihəsinə baxış zamanı bu təkliflərdən istifadə oluna bilər. Həmin məsələ işçi qaydasında Elçin müəllimlə də müzakirə edilmişdir.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, bildirmək istəyirəm ki, qanunun 4 maddəsinə 8 dəyişiklik təklif edilir. Dəyişikliklər könüllülərin, tələbə və şagirdlərin, eləcə də əlilliyi olan şəxslərin icbari tibbi

sığortalanması və sığorta hadisəsi baş verərkən onlara münasibətdə sığortanın təkmilləşdirilməsi xarakteri daşıyır. Eyni zamanda, sığorta hadisəsi zamanı birdəfəlik sığorta ödənişinin maksimum məbləğini müəyyən edir.

Layihənin mətnində dəyişiklik yoxdur. Komitə xahiş edir ki, Milli Məclisdə ikinci oxunuşda müzakirə edərək qəbul edəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim.

Hörmətli həmkarlar, gəlin, qanun layihəsini əsas kimi qəbul edək. Buyurun, münasibət bildirin. Səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsində 4 maddə var. İki-iki səsə qoyacağam. Xahiş edirəm,1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti məsələmiz “Tibbi sığorta haqqında” və “Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Səhiyyə komitəsində baxılmışdır. Məsələyə dair

məlumat vermək üçün mən komitə sədri hörmətli Əhliman müəllim Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, qanun layihəsi Səhiyyə komitəsində və Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirə edilərək yekdilliklə qəbul olunmuşdur. Qanun layihəsi qəbul edildikdən sonra komitəyə rəy və təkliflər daxil olmamışdır. Qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyinizi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılmışdır. Ona görə də mən sözü yenə də Musa müəllimə verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, bizim komitənin də rəyi müsbətdir, olduğu kimi səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, vacib qanun layihəsidir, "İcbari tibbi sığorta fondu" anlayışının Əsas anlayışlara daxil edilməsini özündə ehtiva edir. Eyni zamanda, qanun layihəsi fondun maliyyəsinin formalaşma mənbələrinin və istiqamətlərinin daha aydın şəkildə təsbit edilməsinə imkan verəcək. İkinci oxunuşun tələblərinə uyğun olaraq, "Tibbi sığorta haqqında" Qanunda dəyişikliklə bağlı bir sıra təkliflərimi təqdim etmək istərdim.

Əvvəla, sözügedən qanun layihəsinin 1.1.18-ci maddəsində İcbari tibbi sığorta fondunun anlayış olaraq aşağıdakı redaktədə verilməsini təklif edərdim: "İcbari tibbi sığorta fondunun səhiyyə xidmətlərinə universal çıxışını təmin etmək məqsədi ilə dövlət mülkiyyətində olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan–qurum tərəfindən idarəçiliyi həyata keçirilən və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondudur".

Səhiyyə xidmətlərinə universal çıxışın təmin edilməsinin qeyd edilməsi fondun ünvanlılığının təsbit edilməsi baxımından vacibdir. Çünki İcbari tibbi sığorta fondu ilə bağlı qanun layihəsində qeyd edilən anlayış, eyni zamanda, tərif, əslində, digər oxşar fondlara da şamil edilə bilər. O baxımdan, səhiyyə xidmətlərinə universal çıxışın təmin edilməsinin qeyd edilməsi birmənalı şəkildə fondun ünvanlılığının təmin edilməsini və anlayış olaraq məhz İcbari tibbi sığorta fondu ilə bağlılığı təsdiq edəcək.

Son üç ildə İcbari tibbi sığorta fondunun həm xərclərində, həm də maliyyə istiqamətlərində fərqlər müşahidə olunmuşdur. Praktik olaraq bu da qanun layihəsində fondun tərifinin verilməsinə ünvanlılıq baxımından baxışın təqdim olunmasına gətirib çıxarır. Xüsusən 2023-cü ildə fondun xərcləri 2 milyard 393 milyon manat təsdiq olunmuşdursa, bu göstərici

2024-cü ildə 2 milyard 850 milyon, 2025-ci ildə 2 milyard 941 milyon manat nəzərdə tutulmuşdur.

Eyni zamanda, 2025-ci ildən etibarən başlanan və bu il daha da sürətlə həyata keçirilən struktur və kadr islahatları fondun büdcəsinin strukturuna birbaşa təsir göstərib. İcbari tibbi sığorta fondunun 2026-cı ildə büdcəsinin xərcləri 2 milyard 621 milyon manat nəzərdə tutulub. Bu qanun layihəsi Milli Məclis tərəfindən də qəbul edilib və təsdiq olunub.

Bizim müzakirə etdiyimiz qanun layihəsi baxımından vacib məqamlardan biri xərclərin maliyyələşmə mənbələridir. Belə ki, fondun büdcə gəlirləri 1 milyard 976 milyon manat olsa da, İcbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə 645 milyon 460 min manat vəsait ayrılıb. Praktik olaraq bu sahədə həyata keçirilən sistemli islahatlar dövlət büdcəsindən ayrılan vəsaitə qənaət edilməsinə imkan yaradıb. Əgər 2025-ci ildə dövlət büdcəsindən fonda 1 milyard 416 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdursa, bu il dövlət büdcəsindən sığortalanmaya 900 milyon manat vəsait ayrılacaq. Yalnız əhalinin dövlət büdcəsi vəsaiti hesabına icbari tibbi sığortalanmasına 2025-ci ildə 1 milyard 266 milyon manat nəzərdə tutulmuşdur. Nəticədə əvvəlki illərdə olan qalıq vəsait hesabına yalnız dövlət büdcəsindən fonda ayrılmalarda 516 milyon manat vəsaitin qənaət edilməsinə imkan yarandı. O baxımdan, qanun layihəsində də ünvanlılığın nəzərə alınması məqsədəuyğun olardı.

Qanun layihəsinin 15-3.5-ci maddəsinin aşağıdakı redaktədə verilməsini təklif edərdim: “Sığortalananlara aptek təşkilatları tərəfindən ambulator şəraitdə istifadə olunan dərman vəsaitlərinin buraxılmasına yalnız bu qanunun 15-27-ci maddəsində nəzərdə tutulan informasiya

sistemində ötürülmüş elektron resept əsasında yol verilir”. Çünki sözügedən qanun layihəsinin 15-27-ci maddəsində icbari tibbi sığortanın tətbiqi ilə bağlı əməliyyatların elektron qaydada həyata keçirilməsi təklif olunur. Təbii ki,  bu da Azərbaycanda həyata keçirilən elektronlaşma siyasətinə birbaşa uyğundur. O baxımdan, qanun layihəsinin 15-3.5-ci maddəsinə “elektron resept” anlayışının daxil edilməsi və bunun qanun layihəsində nəzərə alınması məqsədəuyğun olardı.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, biz indi maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Növbəti məsələyə keçirik. Hörmətli həmkarlar, bu məsələ Miqrasiya Məcəlləsində, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” və “Dövlət rüsumu haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin sədri Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, layihə ilə bağlı birinci oxunuşda komitəmizin nümayəndəsi geniş təqdimat etmişdir. Bir daha vurğulamaq istəyirəm ki, müvəqqəti olma müddətinin uzadılması bundan sonra Elektron Hökumət İnformasiya Sistemi üzərindən çox sürətlə həyata keçiriləcək və bunun nəticəsində də nəzərdə tutulmuş dövlət rüsumu artıq alınmayacaq. Yəni çox mütərəqqi bir layihədir. Nəzərə alınmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Bu qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılıb. Azər müəllim, komitənin rəyini indi özünüz bildirəcəksiniz. Komitənin sədri Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, layihə ilə bağlı komitəmizin rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə gərək əsas kimi münasibət bildirək. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” və “Dövlət rüsumu haqqında” qanunlara edilən bu dəyişiklikləri dəstəkləyirəm. Amma buradakı 4-cü maddə ilə bağlı qısa qeydim var, onu diqqətinizə çatdırmaq istəyirəm. Həmin 4-cü maddədəki qeydim “bu qərarlar itirildikdə, məhv olduqda, yararsız hala düşdükdə” ifadələri ilə bağlıdır. Azərbaycan dilinin semantikası və leksik uyğunluq baxımından bu ifadələr, fikrimcə, qüsurludur.

Qərar fikri, iradəni və hüquqi statusu ifadə edən anlayışdır. O, fiziki olaraq itə və ya məhv ola bilməz. İtən və ya məhv olan qərarın özü deyil, onun yazıldığı və ya çap olunduğu kağız daşıyıcı, yaxud saxlanıldığı elektron fayldır. Dilimizin qaydalarına görə, burada "qərarın mətni yararsız hala düşdükdə", "qərar sənədi itirildikdə", "qərarın elektron faylı məhv olduqda" ifadələrini işlətmək daha doğru olardı.

Sonda onu da deyim ki, Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda "qərarlar itirildikdə" və ya "qərarlar məhv olduqda" kimi xüsusi anlayışlar və ya hüquqi terminlər yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, səsverməyə keçirik. Biz maddələr üzrə səs verəcəyik. Bu qanun layihəsi 4 maddədən ibarətdir. İki-iki səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul olundu.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

**Səsvermənin nəticələri** (saat 13.16 dəq.)

| | |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Biz gündəliyimizdəki 22-ci məsələyə keçirik. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Bədəl Bədəlova söz verirəm. Buyurun.

**Bədəl Bədəlov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanunu layihəsinin birinci oxunuşundan sonra heç bir sual və təklif olmadığından ikinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Layihədə 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Bizim axırıncı iclasımız sabah olacaq. Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*13 iyul 2026-cı il*

**Ceyhun Məmmədov.** Bu günlərdə Prezident İlham Əliyev növbəti dəfə Qarabağ və Şərqi Zəngəzura səfər etdi. Bir sıra müəssisələrin açılışında iştirak etdi, əhali ilə səmimi görüşlər keçirdi, mühüm bəyanatlar verdi. Çox sevindirici haldır ki, artıq Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərləri ardıcıl xarakter alıb. Dövlət başçısı özü birbaşa bu ərazilərdə həyata keçirilən quruculuq və abadlıq işlərinə nəzarət edir.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə möcüzələr yaradır. Özü də Azərbaycan bütün bu işləri öz gücü və imkanları hesabına həyata keçirir. Bu iş o qədər də asan deyil. Dünyada belə nümunələr çox azdır.

2020-ci ildə torpaqlarımız Prezident İlham Əliyevin qətiyyətli və prinsipial siyasəti, xalqımızın birlik və həmrəyliyi, qəhrəman vətən övladlarının şücaəti nəticəsində azad olundu. Qısa zamanda ərazilərin minalardan təmizlənməsi prosesinə başlanıldı. Özü də heç bir xarici dəstək olmadan. Qeyd etdiyim kimi, dünyada belə nümunələr çox azdır.

Bu gün doğma torpaqlara yalnız əhali deyil, eyni zamanda, adət-ənənələrimiz və dəyərlərimiz qayıdır. Artıq evlərdən sevinc səsləri yüksəlir.

Bütün bunlar onu deməyə əsas verir ki, tezliklə Qarabağ dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcək.

Hazırda isə Şuşada növbəti media forumu keçirilir. Bu mötəbər kürsü də Azərbaycan həqiqətlərinin çatdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Hazırda cənab Prezident dünyaya çox mühüm və ciddi mesajlar verir.

Onu da qeyd edim ki, Qarabağ həqiqətlərinin çatdırılması baxımından bu forum xüsusi önəmə və əhəmiyyətə malikdir. Bu gün bütün dünyanın diqqəti Azərbaycana yönəlib.

Beləliklə, deyə bilərik, tezliklə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün hədəf və məqsədlərinə nail olacaq. Azərbaycanın mövqeyi və nüfuzu dünyada daha da güclənəcək.

**Jalə Əliyeva.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media mənsubları. Ötən gün ölkə Prezidenti cənab İlham Əliyev doğma Qarabağ torpağına növbəti səfərini etdi.

Prezident İlham Əliyevin Qarabağa hər səfəri Azərbaycan dövlətinin həyata keçirdiyi Böyük Qayıdış proqramının uğurla davam etdiyini bir daha nümayiş etdirir. Bu səfərlər təkcə yeni obyektlərin açılışı və ya görülən işlərlə tanışlıq deyil, həm də dövlətimizin Qarabağın hər qarışına sahib çıxdığının, bu torpaqlarda həyatın sürətlə bərpa olunduğunun bariz göstəricisidir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri müasir Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və inkişaf potensialını əks etdirir. Yeni yaşayış məntəqələri salınır, məktəblər,

xəstəxanalar, yollar, hava limanları, enerji və kommunikasiya infrastrukturu yaradılır.

Dünyada postmünaqişə dövründə belə qısa müddətdə bu miqyasda yenidənqurma işlərinin həyata keçirilməsi nadir hallarda rast gəlinən nümunələrdəndir.

Prezident İlham Əliyevin Qarabağ sakinləri ilə səmimi görüşləri, onların qayğı və təkliflərini dinləməsi, görülən işlərə şəxsən nəzarət etməsi dövlət–vətəndaş birliyinin ən gözəl təzahürüdür. Doğma yurdlarına qayıdan insanların sevinc dolu baxışları, yenidən qurulan şəhər və kəndlər Böyük Qayıdış proqramının artıq real nəticələr verdiyini göstərir.

Qarabağın dirçəldilməsi yalnız infrastrukturun bərpası demək deyil. Burada tarixi və mədəni irsimiz bərpa olunur, müasir şəhərsalma prinsiplərinə əsaslanan yeni yaşayış məkanları yaradılır, yaşıl enerji layihələri həyata keçirilir, bölgənin turizm və iqtisadi potensialı inkişaf etdirilir. Bu, danılmaz bir həqiqətdir ki, Qarabağ Azərbaycanın ən müasir və inkişaf etmiş bölgələrindən birinə çevrilməkdədir.

Təəssüf ki, bəzi xarici dairələr, qərəzli qüvvələr bu möhtəşəm quruculuq prosesinə kölgə salmağa çalışır, gözdənsalma kampaniyaları aparırlar. Lakin reallıq göz önündədir. Salınan hər yeni yol, açılan hər yeni məktəb, tikilən hər yeni yaşayış məhəlləsi, doğma yurduna qayıdan hər yeni ailə Azərbaycanın haqlı mövqeyinin və həyata keçirdiyi siyasətin ən tutarlı sübutudur.

Bu gün Qarabağ dağıntılar diyarından quruculuq və inkişaf məkanına çevrilib. Prezident İlham Əliyevin Qarabağa hər səfəri isə yeni uğurların, yeni layihələrin və Böyük Qayıdışın növbəti mərhələsinin başlanğıcı kimi yadda qalır.

Əminik ki, dövlətimizin qətiyyətli siyasəti nəticəsində Qarabağ yaxın gələcəkdə regionun ən inkişaf etmiş, ən abad və ən müasir məkanlarından biri olacaq.

**Nizami Səfərov.** İkinci Qarabağ müharibəsi və qısamüddətli antiterror əməliyyatı nəticəsində Ermənistanın beynəlxalq hüquqazidd ərazi iddialarından qaynaqlanan işğala son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, son 80 il ərzində Azərbaycan dövləti və xalqı qədər heç bir dövlət, heç bir xalq buna oxşar qələbə qazanmamışdır.

Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində dövlətimiz bir çox çətinliklər, problemlər və itkilərlə üzləşmişdi. AXC–Müsavat hakimiyyətinin dövründə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmırdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik formalaşmamışdı. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi dövlətimiz və xalqımız üçün böyük faciə idi. Kəlbəcər rayonu 1993-cü ilin aprel ayında işğal edildikdən sonra Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Ölkənin ən çətin və mürəkkəb durumunda, vətəndaş müharibəsi ilə üz-üzə gəldiyi bir zaman xalqın təkidli tələbi ilə böyük siyasi, idarəetmə təcrübəsinə malik olan Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra vəziyyət köklü surətdə dəyişməyə başladı, həyatın bütün sahələrində – dövlət idarəetməsi, ordu quruculuğu, iqtisadi və sosial sahədə köklü dəyişikliklər baş verdi. 1993-cü il oktyabrın 3-də Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə dövlətimizin həyatında yeni dövrün əsası qoyulmuşdur. Hazırda ölkəmizin əldə etdiyi

bütün nailiyyətlərin əsası, inkişaf strategiyasının təməli məhz Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılmışdır.

Azərbaycan tarixində möhtəşəm hadisələrin baş verdiyi bir dönəmdə dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Qalib dövlət kimi Azərbaycan bütöv Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradaraq bütün dünyaya nümayiş etdirir ki, həddindən artıq mürəkkəb bir beynəlxalq şəraitdə balanslaşdırılmış, praqmatik və milli maraqlara cavab verən siyasət həyata keçirir.

***

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq, milli qanunvericiliyə bir sıra yeni hüquqi definisiyalar daxil edilir və onların dəqiq formada müəyyən edilməsi hüquq normalarının düzgün tətbiqi üçün həlledici xarakter daşıyır.

Bu kontekstdə müzakirəyə çıxarılan layihədə mövcud qanunun məqsədləri üçün 2.2-ci maddədə istifadəsi təklif olunan anlayışlar sırasında "proaktiv kibertəhlükəsizlik tədqiqatı" termini diqqəti cəlb edir. İlk növbədə, qeyd etmək istərdim ki, bu termin layihədə "kibertəhdidlər, onların mənbəyi, törədilmə vasitələri və üsulları barədə məlumatların toplanması və təhlili" kimi ifadə olunmuşdur.

Kibertəhlükəsizliyin təmin olunmasının klassik modelinə uyğun olaraq, əksər təşkilatlar ənənəvi yanaşmadan istifadə edirlər. Öncə hansısa insident baş verir, ondan sonra araşdırma keçirilir, zərərli nəticələrin aradan qaldırılması üçün səylər göstərilir. Bu yanaşmaya alternativ paradiqma informasiya təhlükəsizliyinin müntəzəm ekspertizasına

əsaslanır, boşluqların və istifadə olunan protokollarda səhvlərin müəyyən edilməsini nəzərdə tutan, yarana biləcək riskləri qiymətləndirən proaktiv təhlükəsizliyin təmin olunmasıdır.

"Proaktivlik" termininin semantik mənası informasiya təhlükəsizliyi sahəsində baş verən hadisələrə, sadəcə, reaksiya vermək əvəzinə, gələcək hadisələrə öncədən hazır olmaq və ya problemlərin qarşısını almaq üçün əvvəlcədən tədbir görməklə vəziyyətin idarə olunmasını ehtiva edir. Proaktiv kibertəhlükəsizlik tədqiqatının əsas məqsədi potensial kiberhücumları və mövcud boşluqları sistemə, şəbəkəyə zərər vurmadan öncədən aşkar etmək, erkən xəbərdarlıq sistemini formalaşdırmaq və təhlükənin qarşısını almaq məqsədi ilə zəruri önləyici tədbirlər həyata keçirməkdən ibarətdir.

Bu mənada qanun layihəsinin 2.2-ci maddəsində "proaktiv kibertəhlükəsizlik tədqiqatı" termininin anlayışında bu tədqiqatın qabaqlayıcı, preventiv xarakter daşıması əks olunmalıdır.